Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

10 APREL 2020-ci il

№ 54 (4185)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

səh. 8

# RUSİYA-AZƏRBAYCAN HƏRBİ AVİATİCARƏT RAZILAŞMASI - ERMƏNİSTANDA NARAHATLIQ VƏ ANTİ-RUSİYA İSTERİKASI...

Təcrid vəziyyəti Ermənistanın işğal siyasətini dalana dirəyir - hökumət daxilində çatlar dərinləşir, iqtisadi çöküş xaotik vəziyyət alır və... koronavirus...

səh. 9

İran, nəhayət, Ermənistanın siyasi qardaşlıq arxasındakı əsl sifətini görür - İsraildə səfirlik...

səh. 8

Ermənilərin Qarabağa gəlmə xalq olduqları barədə dünya mediasında xəbərlər artır

səh. 10

Ermənistanın dəngəsiz xarici siyasəti öz başında çatlayır - Moskva və Tehran İrəvandan üz döndərir...

səh. 7

Azərbaycanda kapital və əmlaka amnistiya - ölkədən çıxan maliyyəni geriyə qaytaracaq uğurlu seçim...

səh. 6

Sərt olsa da, şəraitə ən uyğun qərar - karantini pozanlara 3 il həbs, pul cəzası...

səh. 5

Azərbaycan hətta çətin şəraitlərdə də ünvanlı sosial yardımın çevrəsini genişləndirir - 13 faiz artım, 78 mindən çox ailə...

səh. 12

Uşaqların koronavirusa yoluxduğu barədə iki ziddiyyətli xəbərə həkimlər necə baxır...

səh. 15



səh. 3

## TƏBİB və Operativ Qərargah eyni mövqedə - qaydalar sərtləşdirilməlidir



Azərbaycanda ərzaq qıtlığı barədə təxribatçı şayiələri məqsədli şəkildə yayanlar...

səh. 12

Koronavirusa inanmayanların iki tutarsız arqumenti - əks-arqumentlər daha dəqiq oldu...

səh. 5



Dünya səhiyyə təşkilatının Belarusa məcburi karantin tətbiqi məsələsi - kütləvi insan sağlamlığı, ya dövlət suverenliyi...

səh. 11

səh. 4

Karantin rejimində küçəyə çıxmaq icazələrinin bir çoxunun ləğvi niyə zəruri oldu...



səh. 13

Azərbaycanda onlayn "Sosial etibarnamə" - fövqəladə şəraitdə daha bir vacib sosial xidmət asanlaşdırıldı...



səh. 14

Agentlik xətti ilə sahibkarlara güzəştli kreditin məbləği və müddəti artırıldı - 3 il, 15 min manat...



səh. 14

Rusiya pomidor idxalını azaltmağa hazırlaşır - Azərbaycan pomidoru üçün bazar itirmək təhlükəsi...



səh. 15

"AtaBank" heç olmasa ağır koronavirus günlərində müştərilərinə canıyananlıq edəydi - əmanətçilərə niyə pul verilmir...



# Prezident koronavirusla mübarizənin gücləndirilməsinə 97 milyon manat ayırdı



**Prezident İlham Əliyev "Koronavirus pandemiyasına qarşı Azərbaycan Respublikasında həyata keçirilən səhiyyə tədbirləri çərçivəsində zəruri tibbi avadanlığın və digər tibbi vasitələrin tədarükü üçün vəsait ayrılması haqqında" sərəncam imzalayıb.**

Baki-xeber.com-un xəbərinə görə, sərəncamda koronavirus pandemiyasının yayılmasının qarşısının alınması və onunla mübarizənin gücləndirilməsi məqsədilə zəruri tibbi avadanlığın və digər tibbi vasitələrin tədarükü üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə 97 milyon manat ayrılması, Maliyyə Nazirliyinə Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni təmin etmək tapşırılır.

Nazirlər Kabineti isə Sərəncamdan irəli gələn digər məsələləri həll edəcək.

## Prezident İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçiriləcək

**Azərbaycan Respublikasının Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçiriləcək.**

Baki-xeber.com xəbər verir ki, bu barədə Prezidentin mətbuat xidməti məlumat yayıb.

Zirvə görüşü koronavirus pandemiyası ilə mübarizə mövzusuna həsr olunacaq.

## Azərbaycanda daha 104 koronavirusa yoluxma faktı qeydə alındı, 1 nəfər vəfat etdi, 38 nəfər sağaldı



**Azərbaycanda 104 yeni koronavirus (COVID-19) infeksiyasına yoluxma faktı qeydə alınıb, həmin şəxslər xüsusi rejimli xəstəxanalara yerləşdirilib.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a verilən məlumata görə, koronavirus (COVID-19) üçün götürülən analiz nümunələri müsbət çıxmış 1949-cu il təvəllüdlü, şəkərli diabet və xərçəng xəstəsi olan vətəndaşın səhhətinin stabilləşdirilməsi ilə bağlı aparılan reanimasiya tədbirləri nəticə verməyib və pasiyent vəfat edib. Onun ailə üzvləri, ünsiyyətdə olduğu digər şəxslər müəyyən edilir və karantinə götürülür.

Eyni zamanda, koronavirus infeksiyasına yoluxmuş 38 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Ümumilikdə, hazırkı dövrədək ölkəmizdə 926 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 101 nəfəri müalicə olunaraq sağalıb, 9 nəfər vəfat edib, 816 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 27 nəfərin vəziyyəti ağır, 35 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 57371 test aparılıb.

# Baş nazir Əli Əsədov Milli Məclisdə hesabat verdi

**Baş nazir Əli Əsədov Milli Məclisdə videohesabat verib. Əli Əsədov koronavirus pandemiyasının doğurduğu risqlərdən, dünya neft bazarında dalğalanmaların milli iqtisadiyyatımıza mənfi təsirlərindən də danışıb.**



"Bildiyiniz kimi, koronavirus epidemiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi üçün cənab Prezidentin 2020-ci il 27 fevral tarixli Sərəncamı ilə Nazirlər Kabineti yanında operativ qərargah yaradılmışdır.

Nazirlər Kabineti "Azərbaycan Respublikasında yeni koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair Tədbirlər Planı təsdiq etmişdir. Hazırda nəzərdə tutulmuş silsilə tədbirlər ardıcıl qaydada həyata keçirilməkdədir.

Azərbaycanda sanitar-epidemioloji vəziyyət ciddi nəzarətdədir. Epidemiyadan qorunmaq üçün ölkəmizdə kifayət qədər tibbi ləvazimat vardır. Eyni zamanda, onların yerli istehsalının təşkili istiqamətində də konkret işlər görülüb.

Nazirlər Kabineti yanında Operativ Qərargah Azərbaycan Respublikasının "Sanitariya-epidemioloji salamatlıq haqqında" Qanununun 25-ci maddəsinə uyğun olaraq 2020-ci il martın 14-dən etibarən ölkə ərazisində tətbiq olunacaq bəzi sosial izolyasiya tədbirlərini elan etmişdir. Martın 24-dən aprelin 20-dək Azərbaycanda xüsusi karantin rejimi elan olunmuşdur.

Bundan başqa, martın 29-dan xüsusi karantin rejiminin gücləndirilməsi və 2 aprel tarixli Qərara əsasən aprelin 5-dən 20-dək hərəkət məhdudiyyətləri müəyyən olunmuşdur. Bu tədbirlərin tətbiqi qaçılmazdır" - Baş nazir deyib.

Baş Nazir əlavə edib ki, hökumət dünya iqtisadiyyatında gedən prosesləri gündəlik əsasda izləyir və qabaqlayıcı rejimdə tədbirlər həyata keçirir: "Koronavirus pandemiyası, aşağı neft qiymətləri və sosial təcriddən irəli gələn aşağı tələbin digər ölkələrdə olduğu kimi milli iqtisadiyyatımız üçün təsirlər yaradacağı istisna edilmir. Lakin, Hökumət ölkə iqtisadiyyatına mənfi təsirlərinin aradan qaldırılması üçün müvafiq təsir alətlərinə malikdir və bu alətlərdən çevik istifadə olunacaqdır.

Cənab Prezidentin 19 mart 2020-ci il tarixli Sərəncamı ilə koronavirus pandemiyasının Azərbaycan iqtisadiyyatına mənfi təsirinin azaldılması ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün 1 milyard manat ayrılıb, həmçinin İqtisadiyyat, Maliyyə, Əmək və Əhalinin Sosial Müdafiə nazirləri və Mərkəzi Bank sədrinin rəhbərliyi ilə dörd işçi qrup yaradılıb və hazırda vahid tədbirlər planı hazırlanıb və təsdiq olunub. Təsdiq olunmuş vahid Tədbirlər Planı Hökumət tərəfindən vaxtında və tam həcmdə icra olunacaqdır.

Azərbaycan dövləti tərəfindən görülən bütün tədbirlər xalqın sağlamlığını, ölkəmizin təhlükəsizliyini təmin etmək məqsədi daşıyır. Karantin rejiminin tətbiq olunması, məhdudlaşdırıcı tədbirlərin görülməsi - bütün görülən işlər, qəbul edilmiş qərarlar bir məqsədi güdür - biz bu ağır sınaqdan az itkilərlə çıxmalıyıq və vətəndaşlarımızı qorumalıyıq".

# Ermənistan bir zərbəni də ATƏT PA-dan aldı - "Qarabağda keçirilmiş qondarma "seçkilər" qeyri-legitim idi..."

**İşğal olunmuş və beynəlxalq səviyyədə tanınmayan Dağlıq Qarabağda keçirilmiş qondarma "seçkilər" qeyri-legitim idi və əhalinin sağlamlığına təhdidi gücləndirə bilərdi.**

"Trend"in məlumatına görə, bunu ATƏT Parlament Assambleyasının üzvləri bildirib.

ATƏT PA-nın prezidenti Georgi Sereteli qeyd edib ki, qurumun rəhbərliyi BMT-nin baş katibi Antoniu Quterreşin bütün dünyada atəşkəs çağırışını dəstəkləməyə razılıq verib.

O vurğulayıb ki, ölkələrin koronavirus pandemiyasının qarşısını almağa çalışdığı vaxtda ATƏT regionunda hələ də münaqişələr tüğyan edir: "Bütün dünya COVID-19 pandemiyası ilə mübarizə apardığı bir vaxtda silahlı münaqişələr bu səyləri çətinləşdirə bilər. ATƏT ərazisində bir sıra münaqişələr var. Mən bütün tərəfləri BMT-nin atəşkəs çağırışına əməl etməyə çağırıram ki, hamımız COVID-19-a qarşı ümumi mübarizədə səylərimizi birləşdirə bilək".

**Koronavirus pandemiyasının yayılması ilə bağlı Azərbaycanda vəziyyət qənaətbəxş deyil. Son məlumata görə, indiyədək 53 min 11 nəfər testdən keçirilib. Hazırda reanimasiyada olan xəstə sayı 8, süni tənəffüs cihazına qoşulan xəstə sayı 2 nəfərdir. Qeyd edək ki, Azərbaycanda koronavirusa yoluxanların sayı 822, virusdan ölənlər 8, sağalan xəstə sayı 63, aktiv xəstələrin sayı isə 751 nəfərə çatıb.**

# TƏBİB və Operativ Qərargah eyni mövqedə - qaydalar sərtləşdirilməlidir

Verilən rəsmi açıqlamalardan belə məlum olur ki, vətəndaşlarımız heç də karatin rejiminə tam şəkildə əməl etmirlər. Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın keçirdiyi son brifinqdə TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı deyib ki, hələ də karantin rejiminə əməl etməyib virusu yayan vətəndaşlarımız var. O qeyd edib ki, vətəndaşlar karantin rejiminə əməl etməsələr, hökumət qarşısında daha sərt rejimin yaradılması məsələsi qaldırılacaq.

TƏBİB sədri bildirib ki, nə qədər çox şəxsə vaxtında dəqiq diaqnoz qoyulsa, bir o qədər xəstəliyə yoluxanların sayında azalma əldə etmək mümkün olar:"Testlərlə bağlı xüsusi logistika proqramı hazırlanıb. Təcili yardım briqadaları daim hazır vəziyyətdə olurlar. Ölkə üzrə 22 tibb müəssisəsi karantin üçün ayrılıb. Xaricdə də müşahidə edirik ki, süni nəfəs aparatına qoşulan şəxslərin həyatını çox vaxt xilas etmək olmur. Belə halların bizdə baş verməməsi üçün israrla vətəndaşları karantin qaydalarına əməl etməyə çağırıram. Təəssüf ki, bəzən qaydaları pozanlar arasında savadlı şəxslər də olur. Əgər vətəndaşlar qaydalara əməl etsələr, yoluxmanın sürəti azalar, sağalanların isə sayı artar".

Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov da son açıqlamasında bildirib ki, ölkəmizdə karantin rejiminin müddəti uzadıla, hətta qaydalar sərtləşdirilə bilər: "Statistika göstərir ki, əksər vətəndaşlar karantin rejiminin qaydalarına əməl etmirlər. Əgər yoluxanların sayı artsa və vətəndaşlar qaydalara əməl etməsələr, karantin rejiminin müddəti uzadıla, hətta qaydalar sərtləşdirilə bilər. Təəssüf ki, bəzən qaydaları pozanlar arasında savadlı şəxslər də olur. Əgər vətəndaşlar qaydalara əməl etsələr, yoluxmanın sürəti azalar, sağalanların isə sayı artar".

Göründüyü kimi, hər iki qurum karantin qaydalarının sərtləşməsini məqbul sayır. Proseslərin bu gedişi nə vəd edir?

Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Sanitariya-epidemioloji sağlamlıq haqqında Qanununun 25-ci maddəsinə əsasən, Azərbaycan Respublikasında 24 mart 2020-ci il saat 00:00-dan etibarən

***Elşən Həsənov:** "Karantinə görə verilən müavinətlər tələb olunursa, vətəndaşların borcudur ki, qaydalara, qadağalara da əməl etsinlər"*



20 aprel saat 00:00-dək xüsusi karantin rejimi elan edilib:"Amma buna baxmayaraq, vətəndaşlar qadağaları heçə sayaraq, istədikləri yerə sərbəst şəkildə gedib-gəlirlər. Hətta o dərəcədə ki, marşrut xətlərində iş günlərində olduğu kimi sıxlıq müşahidə edilir. Biz karantinə əməl edilməməsini açıqlanan rəsmi rəqəmlərdə də müşahidə edirik. Hər gün açıqlanan rəqəmlərdən görünür ki, yoluxma sayında artan dinamika var. Hökumət əlindən gələni edir ki, problem həllini tapsın. Ancaq vətəndaşlarımız bəzən bu cür tədbirləri lağa qoyan, buna ironik yanaşan paylaşımlar edirlər. Hətta karantinə itaətsizliyi təşviq edən paylaşımlara da rast gəlirik. Biz nəyi müşahidə edirik? Vətəndaşlar haqlı olaraq dövlətdən almalı olduqları müavinətləri, yardımları tələb edirlər.

Qoy etsinlər. Hamı haqqını tələb edə bilər. Amma bununla karantin rejiminə riayət etmək arasında bir uyğunsuzluq görürəm. Əgər karantinə görə verilən müavinətlər tələb olunursa, vətəndaşların borcudur ki, qaydalara, qadağalara da əməl etsinlər. Artıq görürük ki, hokumət karantin vaxtını uzada və daha sərt tədbirlər tətbiq etmək zorunda qala bilər. Çünki başqa yol yoxdur. Hansısa məsuliyyətsiz adamlara görə epidemiyanın geniş yayılmasına imkan verə bilmərik. Karantinə əməl etməyən və bizə "örnək" kimi göstərilən bəzi ölkələr artıq ÜST-dən yardım istəyir. Bu da belə bir nəticəni hasil edir ki, pandemiya ilə zarafat etmək olmaz".

**_Məhəmmədəli QƏRİBLİ_**



# Vışeqrad Qrupu ölkələrinin XİN başçılarının videokonfransında Şərq Tərəfdaşlığının gələcəyi ilə bağlı bəyannamə qəbul olundu

**8 aprel tarixində Vışeqrad Qrupu (V4) ölkələrinin Xarici işlər nazirlərinin Şərq Tərəfdaşlığı ölkələri üzrə videokonfransı keçirilib.**

Xarici İşlər Nazirliyindən (XİN) baki-xeber.com-a verilən məlumata görə, Vışeqrad Qrupuna sədrlik edən Çex Respublikası tərəfindən təşkil olunan bu videokonfrans V4 ölkələrinin Aİ-nin Şərq Tərəfdaşlığı ölkələri ilə öncədən planlaşdırılan, lakin COVİD-9 pandemiyasına görə ləğv olunan görüşünü əvəz edib.

Videokonfrans nəticəsində Vışeqrad dördlüyü Şərq Tərəfdaşlığının gələcəyi ilə bağlı birgə bəyannamə qəbul edib. Bəyannamədə ŞT-nın Aİ-nin xarici fəaliyyətində yüksək prioritet təşkil etməsi və strateji əhəmiyyətini qoruyub saxlamasının vacibliyi qeyd edilir, burada Aİ-nin Şərq tərəfdaşlarına münasibətdə siyasəti ilə bağlı müddəalara yer ayrılaraq, bu siyasətin ŞT-nın əsasını və bölüşülən dəyərləri əks etdirməsi, habelə onun inklüziv olması və tərəfdaş ölkələrin seçiminin dəstəklənməsi və bu ölkələrin istək və öhdəliklərinə uyğun olaraq fərqləndirilməsinin önəmi qeyd olunur.

Bəyannamədə Vışeqrad dördlüyünün bütün tərəfdaş ölkələrinin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə dəstəyi ifadə olunur. Habelə, Şərq Tərəfdaşlığı ölkələri ərzisindəki həll olunmamış münaqişələrin BMT Nizamnaməsi və Helsinki Yekun Aktında əks olunduğu kimi, beynəlxalq hüququn norma və prinsipləri əsasında tezliklə həllinin vacibliyi vurğulanır.

Xatırlatmaq istərdik ki, Helsinki Yekun Aktında əks olunan 10 prinsip arasında yer alan "xalqların bərabər hüquqları və öz müqəddəratı" prinsipi bu şəkildə ifadə olunur: "Dövlətlər xalqların bərabər hüquqları və öz müqəddəratını təyin etməsi hüququna hər zaman BMT Nizamnaməsinin məqsəd və prinsipləri, beynəlxalq hüququn norma və prinsipləri, o cümlədən dövlətlərin ərazi bütövlüyü prinsipinə uyğun olaraq hörmət etməlidir".

V4 ölkələri Şərq Tərəfdaşlığının 2020-ci ildən sonra da inkişafını və dəstəklənməsini davam etdirəcəklərini bəyan ediblər.

# Karantin rejimində küçəyə çıxmaq icazələrinin bir çoxunun ləğvi niyə zəruri oldu...

**Bildiyimiz kimi, karantin rejimi dövründə küçəyə çıxmaq icazəsi olan bir çox kateqoriyaya aid vətəndaşların icazələri ləğv olunub. Bir çox insan vətəndaş məsuliyyətsizliyinə yol verərək, "mənim icazəm var" deyib zərurət olmadan da evdən bayıra çıxmaları ilə sui-istiqafə hallarına yol verirlər.**



***Bəhruz Quliyev:** "Bəzi vətəndaşlar karantin dövründə onlara verilən icazədən sui-istifadə hallarına yol verirdi və bu da onların icazəsinin ləğv edilməsi zərurətini yaratdı"*

***Dəyanət Osmanlı:** "Təəssüf ki, cəmiyyətin müəyyən üzvləri anlayış göstərmirlər, yəni qaydaları pozmağa meyllidirlər, ona görə də..."*

Bunu vətəndaş olaraq hər birimiz həm real həyatda görürük, həm də sosial şəbəkələr, internet resursları vasitəsilə izləyirik. Artıq bu məsələ də rəsmi qaydada öz həllini tapıb.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən "Xüsusi Karantin Rejiminin Tətbiqi Zamanı İcazələrin Alınması və Monitorinqi Sistemi" üzrə qeydə alınmış məlumatların mütəmadi olaraq təhlili aparılır.

Dövlət Agentliyinin yaydığı məlumata görə, təhlillər zamanı müəyyən edilib ki, xüsusi karantin rejimi dövründə hüquqi şəxslərin vəzifəli şəxsləri və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxslər tərəfindən işçilər barədə məlumatlar icaze.e-gov.az portalına daxil edilərkən "Koronavirus (COVID-19) infeksiyasının Azərbaycan Respublikasının ərazisində geniş yayılmasının qarşısının alınmasına dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 2 aprel tarixli, 124 nömrəli Qərarının tələblərinin pozulması hallarına yol verilib.

Qurumdan bildirilir ki, bu cür hallara yol vermiş hüquqi və fiziki şəxslərdən 2020-ci il 9 aprel tarixindən etibarən icaze.e-gov.az portalından aşağıdakı şəxslərin icazələrinin ləğv edilməsi tələb olunur:

- xidmət və ya əmək müqaviləsi olmayan şəxslərin;
- fəaliyyətinin davam etdirilməsinə icazə verilməmiş özəl hüquqi şəxslərin mühafizəsi və texniki təhlükəsizliyinin təmin edilməsi üçün tələb olunan işçiləri istisna olmaqla, digər işçilərinin;
- yaşı 65-dən yuxarı olan, karantin rejimində öz yaşayış yerini tərk etməsi ilə bağlı məhdudiyyət qoyulmuş işçilərinin.

Gördüyümüz kimi, artıq bu kateqoriyadan olan insanların icazəsi ləğv olunub.

Karantin rejimində küçəyə çıxmaq icazələrinin bir çoxunun ləğvi niyə zəruri oldu?

"Səs" qəzeti və eyniadlı informasiya agentliyinin rəhbəri, siyasi icmalçı Bəhruz Quliyev "Bakı-Xəbər"ə mövzunu şərh edərkən bildirdi ki, icazəsi ləğv edilən kateqoriyaya aid olan insanlar karantin rejiminin qaydalarını pozanlardır. "Aparılan sosial izolyasiya tədbirlərinin hər biri vətəndaşların sağlamlığı üçün həyata keçirilir və dövlət öz dəyərli sərvətini - vətəndaşını qoruyur. Bilirsiniz ki, Azərbaycan vətəndaşları dövlətin ən dəyərli sərvətidir. Koronavirus dövrünü çox az itki ilə başa vurmağımız üçün dövlət gərəyi olan bütün işləri görür, tədbirləri həyata keçirir. Bu baxımdan da karantin rejiminin sərtləşdirilməsi hesab edirəm ki, yoluxanların sayı ilə ölçülür. Əgər yoluxma sayında artım hiss olunursa, dövlət artıq önləyici tədbir kimi daha ciddi üsullara əl atmalıdır, karantin rejimi daha da sərtləşdirilməlidir. Hesab edirəm ki, bəzi vətəndaşlar karantin dövründə onlara verilən icazədən sui-istifadə hallarına yol verirdi və bu da onların icazəsinin ləğv edilməsi zərurətini yaratdı. Dövlətin verdiyi icazədən sui-istifadə hallarının qarşısının alınması üçün bu addımın atılması düzgün qərardır. Belə düşünürəm ki, hər bir vətəndaş ona verilən imkanlardan sui-istifadə etməli deyil, əksinə, öz davranışları ilə dövlətin həyata keçirdiyi tədbirlərə dəstək olmalıdır. Jurnalistdir, yaxud bir başqa sahənin təmsilçisidir, ya hansısa bir dövlət qurumunda işləyir, fərqi yoxdur, kimliyindən asılı olamayaraq, sui-istifadə halına yol verən şəxslərə qarşı ölçü götürülməlidir. Bir haşiyəyə çıxım: bir gündə "ölü yerinə gedirəm" adı ilə 8103-ə müraciət edilib icazə alınırsa, deməli sui-istifadə halları var".

B.Quliyev hesab edir ki, sui-istifadə hallarının qarşısının alınması üçün bəzi müvafiq icazə verilmiş şəxslərin icazəsinin ləğv edilməsi labüddür, bunların hər biri insanın sağlamlığına xidmət edən amildir.

Şair-publisist, Azərbaycanda Atatürk Mərkəzinin baş redaktoru, "Borçalı" İctimai Birliyinin sədr müavini Dəyanət Osmanlı da hesab edir ki, bu icazənin ləğv edilməsi tamamilə əsaslıdır: "Epidemiyanın yayılmasına qarşı dövlətin qəbul etdiyi qərarlar zərurətdən irəli gəlir. Çünki bu qərarlar, maarifləndirici, inzibati və digər uyğun tədbirlər dövlətin vətəndaşlara sahiblik hissinin təzahürüdür. Ancaq təəssüf ki, cəmiyyətin müəyyən üzvləri anlayış göstərmirlər, yəni qaydaları pozmağa meyllidirlər, ona görə də karantin rejiminin sərtləşdirilməsinə səbəblər yaranır. İnsanlar anlamalıdırlar ki, atılan zəruri addımların hamısı onların sağlamlığı naminədir. Göründüyü kimi, arada fürsətçilər də peyda olur və vacib hesab olunan icazələrdən, istisnalardan dərhal sui-istifadəyə əl atırlar. Belələri dünyada insanların ölümlə üz-üzə gəldiyini gördükləri halda, yenə də saxtakarlığa gedirlər. Və haqlı olaraq məsuliyyətə cəlb olunurlar. Küçələrdə yenə də maskasız, yaxud da yaşlı insanlara rast gəlinir. Ona görə də qaydaların sərtləşdirilməsinə ehtiyac yaranır. Ancaq bunu hərə bir cür anlayır, səhv, ya düz oldu, anladığı səviyyədə də sosial şəbəkələrdə yayımlayır və nəticə etibarilə başqalarının da düşüncəsinə emosional təsir göstərirlər.

Belə bir vəziyyətdə, fikrimcə, maarifləndirici tədbirləri artırmaq, mediada, xüsusən də sosial şəbəkələrdə təbliğatı gücləndirmək lazımdır. Qeyd edim ki, QHT-lərə Dövlət Dəstəyi Şurası yaxşı bir nümunə göstərir, ictimai birliklərin iştirakı ilə onlayn konfranslar keçirir və bunu sosial şəbəkələrdə, mediada müntəzəm şəkildə təqdim edir. Eləcə də bəzi mətbuat orqanları, o cümlədən, "Bakı-Xəbər" də koronavirusla mübarizə, qaydalara əməletmə, özünüqoruma məsələlərinin cəmiyyətə ötürülməsi işində fəallıq nümayiş etdirir. Vəziyyətin getdikcə gərginləşdiyi zamanda insanlar qaydalara uyğunlaşmaqla təkcə özlərini deyil, cəmiyyətin digər üzvlərini də qoruyurlar. Epidemiyanın yayılmasına qarşı dövlətin qəbul etdiyi qərarlar zərurətdən irəli gəlir. Çünki bu qərarlar, maarifləndirici, inzibati və digər uyğun tədbirlər dövlətin vətəndaşlara sahiblik hissinin təzahürüdür".

**D.Osmanlının sözlərinə görə, hamı üçün çətindir, günəmuzd işləyənlər, işsizlər, məktəblilər var və hökumət təminat məsələsi barədə də praktik təşəbbüslərlə çıxış edir. "Yeni hərtərəfli çətinliklərdir və dünyanın əksər ölkəsində müşahidə olunur. Biz də səbr göstərib çətinliklərin müvəqqəti olduğunu bir-birimizə təlqin etməliyik" - deyə D.Osmanlı qeyd etdi.**

***İradə SARIYEVA***

# Koronavirusa inanmayanların iki tutarsız arqumenti - əks-arqumentlər daha dəqiq oldu...

**Bu gün bütün dünyanın diqqəti bəşəriyyətin bəlasına çevrilmiş koronavirusun həlli yollarına yönəlib. Çox təəssüf ki, bəşəriyyəti cənginə almış bu qorxunc bəla Azərbaycandan da yan keçmədi. Prezident İlham Əliyevin göstərişi əsasında Nazirlər Kabineti yanında yaradılmış Operativ Qərargahın qərar və tövsiyələri birmənalı olaraq icra olunmur.**

Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, nə qədər ciddi rejim yaradılsa da, karantin rejimini pozanlara rast gəlmək olur.

Ən əsası isə, karantin qaydalarına tabe olmamaqla bağlı təbliğat aparanlar da az deyil. Bu qəbildən olan insanlar pandemiyanın güya yalan olduğuna dair təsəvvürlər yaratmağa çalışırlar. Onlar başqalarını inandırmaq üçün belə bir arqumentlərdən istifadə edirlər:"Ölənlərin adı niyə açıqlanmır", "Tanışlarınızdan, qohumlarınızdan bu xəstəliyə yoluxan varmı" və s. Geniş mənada götürəndə bunlar zəif arqumentlər sayılır. Çünki dünyanın heç bir ölkəsində xəstəliyə yoluxanların və bundan ölənlərin adları ayrı-ayrılıqda açıqlanmır, yalnız ümumi statistika verilir ki, buna Azərbaycanda da tam əməl edilir. O zaman belə arqument səsləndirənləri nə dərəcədə haqlı saya bilərik?

"Resurs" Analitik İnformasiya Mərkəzinin rəhbəri Rasim Quliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu olduqca maraqlı mövzudur:"Bu pandemiyanı Azərbaycan elan etməyib. Azərbaycan pandemiya ilə bağlı qaydaları sərtləşdirənə qədər dünyada görün neçə dövlət buna getmişdi. Həmin ölkələrin rəsmi məlumatlarında pandemiyanın olduğu, ölənlərin mövcudluğu qeyd olunurdu. Bütün dünyanı bürüyən bu təhlükəli halla bağlı hansı yalan ola bilər? Kimsə buna qadir ola bilərmi ki, belə yalanı uydursun? Pandemiyanı ÜST elan edib. Azərbaycanda kimsə buna inanmırsa, bu heç də o anlama gəlmir ki, dövlət qabaqlayıcı tədbirlər görməməlidir. Başqa ölkələrdə karantin qaydaları ilə bağlı daha sərt intzibati tədbirlər görürlər. Hətta buna görə həbslər də olur. Bizim ölkə administrartiv, inzibati tədbirləri ilə yanaşı öz humanistliyini də ortaya qoyur. Bu yöndə təbliğat və maarifləndirməyə daha çox üstünlük verilir. Azərbaycanda informasiyanı, ölənlərin, yoluxanların

***Rasim Quliyev:** "Vətəndaşlarımız məhz rəsmi informasiyaya inanmalı, ordan verilən tövsiyələrə əməl etməlidirlər"*




sayını rəsmi mənbə elan edirsə, hansı əsasla buna inanmamlıdırlar? Əks arqument qoyanlar isə qeyri-rəsmi şəxslərdi. Vətəndaşlarımız məhz rəsmi informasiyaya inanmalı, ordan verilən tövsiyələrə əməl etməlidirlər. Qeyri-rəsmi adam bəd ayaqda deyəcək ki, mən belə başa düşürdüm. Belə panikaları yayanlar üçün həm də məsuliyyət nəzərdə tutulur. Bunu bizim ölkəmiz başlamayıb. İstənilən halda, özümüzü dövlətimizin tövsiyələri əsasında müdafiə etməyə borcluyuq. Çox uğurlu da müdafiə tədbirləri görürük. Bir olub, dövlətimizin yanında olsaq, biz bu pandemiyaya tez bir zamanda qalib gələcəyik".

*Məhəmmədəli QƏRİBLİ*

# Sərt olsa da, şəraitə ən uyğun qərar - karantini pozanlara 3 il həbs, pul cəzası...

**COVID-19 pandemiyası ilə əlaqədar bütün dünyada təhlükəli vəziyyət davam edir. Çindən sonra İtaliya, İran, Fransa və ABŞ da ciddi problemlə üzləşən ölkələrin siyahısında öndə gəlir. Mütəxəssislər hesab edirlər ki, İtaliyada ölümlərin sayının çox olması bu ölkənin durumu əvvəlcə ciddiyə almaması, tövsiyələrə əməl etməməsi ilə bağlıdır.**



Azərbaycanda da koronavirus yayılmaqda davam edir. Dövlətin digər ölkələrdən fərqli olaraq vaxtında önləmlər alması fəlakəti önləsə də, vətəndaşların tətbiq edilən karantin rejiminə ciddi əməl etməsi vacib şərtdir. Əks təqdirdə Azərbaycanda da vəziyyət nəzarətdən çıxa, ölümlərin sayı arta, problem dərinləşə bilər. Çünki problemin fəlakətə yol açmaması üçün vətəndaşların davranışından çox şey asılıdır.

Koronavirusun Azərbaycanda geniş yayılması üçün ölkəmizdə karantin rejimi tətbiq olunub. Karantin rejiminə əməl etməyənlər qanunvericiliyin tələbinə uyğun olaraq cəzalandırılır.

Bakı Dövlət Yol Polisi İdarəsinin şöbə rəisi Kamran Əliyev Azərbaycan Televiziyasının "Evdə qal" verilişinə açıqlamasında bildirib ki, karantin rejimini pozanlar 3 ilədək həbs gözləyir: "Fiziki şəxslərlə vəzifəli şəxslərin cəza sanksiyasında inzibati xətanın mahiyyəti, onu törədənin şəxsiyyəti nəzərə alınmaqla bir ayadək müddətə məhkəmə tərəfindən inzibati həbs

***Könül İsmayılova:** "Xüsusi rejimə əməl etməyən hər bir vətəndaşın koronavirusa yoluxmaq ehtimalı çox böyükdür"*

cəzası da verilir. Eləcə də əgər həmin şəxsin eyni əməli digər şəxslərin yoluxmasına səbəb olarsa, bu halda, həmin şəxs cinayət məsuliyyəti daşıyır və Cinayət Məcəlləsinin 39-1-ci maddəsinə müvafiq olaraq onun azadlığı ya 3 il müddətinə məhdudlaşdırılır və ya o, 3 ilədək azadlıqdan məhrum edilir".

Karantin rejimini pozanların həbs olunması ilə bağlı fikir bildirən psixoloq Könül İsmayılova bildirdi ki, dünyanı cənginə alan koronavirus infeksiyasının fəsadları Azərbaycandan da yan keçməyib. Düzdür, bir sıra ölkələrlə müqayisədə bizdə bu virusa yoluxanların və ölənlərin göstəriciləri hələlik az olsa da, hər halda, nəzərdən qaçırmaq olmaz ki, Azərbaycanda koronavirus infeksiyasına yoluxanların sayı, müəyyən qalxıb-enmələrlə, artan xətlə gedir. Həm də bu xəstəliyə yoluxma sürəti sağalanların sürətini üstələyir: "Koronavirus infeksiyasının Azərbaycan Respublikasının ərazisində geniş yayılmasının qarşısının alınması üzrə dövlət tərəfindən həyata keçirilən tədbirlər çərçivəsində insanların fərdi evlərində və mənzillərində, daimi və ya müvəqqəti yaşadıqları yerlərdə qalmaları tələb olunur. Fərdi evlərdən və mənzillərdən insanların çıxışı - təxirəsalınmaz tibbi yardıma zərurət olduqda, həyat və sağlamlığa bilavasitə təhlükəli vəziyyət yarandıqda, fəaliyyətinə icazə verilən pərakəndə satış və əhaliyə xidmət göstərən obyektlərə getmək, məişət tullantılarının atılması hallarında, eləcə də xüsusi rejim dövründə fəaliyyət göstərən təşkilatlarda xidməti vəzifələrini icra etmək məqsədilə mümkündür. Xüsusi rejimə əməl etməyən hər bir vətəndaşın koronavirusa yoluxmaq ehtimalı çox böyükdür.

*"Xüsusi qaydalara əməl etməyib, inzibati cəzaya məruz qalanların sayı göstərir ki, hələ də bu xəstəliyi ciddiyə almayan insanlarımız çoxdur"*

Eyni zamanda, onu da nəzərə almaq lazımdır ki, hər bir insanın özünü qoruması üçün maska taxması, dezinfeksiya etməsi nə qədər vacib və təqdirəlayiq olsa da, beynəlxalq praktika da sübut edir ki, yoluxmadan uzaq olmağın ən əsas, ən etibarlı yolu təcriddir. Amma xüsusi qaydalara əməl etməyib, inzibati cəzaya məruz qalanların sayı göstərir ki, hələ də bu xəstəliyi ciddiyə almayan insanlarımız çoxdur. İnsanlar vəziyyəti dərk edib, bu bəlaya onun ciddiliyinə adekvat yanaşmalıdırlar. Əks halda, həmin insanlar sərt şəkildə cəzalandırılmalıdırlar. Karantin rejiminə əməl etməyənlər həbs olunarsa, digər vətəndaşlar da qaydaya riayət edərlər".

*Günel CƏLİLOVA*

# Azərbaycanda kapital və əmlaka amnistiya - ölkədən çıxan maliyyəni geriyə qaytaracaq uğurlu seçim...

**Bu ayın əvvəlində gündəmə gələn məsələlərdən biri də ölkədə kapitalın və əmlakın amnistiyası ilə bağlı oldu. Məsələyə münasibət bildirən iqtisadiyyat naziri Mikayl Cabbarov Prezident İlham Əliyevlə görüşdə diqqətə çatdırdı ki, həm özəl, həm də bank sektorunun nümayəndələri "kölgə iqtisadiyyatı"nın azaldılması və aradan qaldırılması prosesində vacib alət olan kapitalın və əmlakın amnistiyası məsələsinə baxılmasını xahiş ediblər:**

"Biz neft və qaz gəlirlərinin yerini dolduracaq siyasət həyata keçirmək niyyətindəyik. Xüsusi olaraq sahibkarların təşkilatları ilə "kölgə iqtisadiyyatı" mövzusu da müzakirə edilib. Kapital və əmlakın amnistiyası ilə bağlı təklifləri diqqətinizə ümumi paketdə təqdim edilib".

Bunun ardınca daha bir maraqlı açıqlama İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlıdan gəldi. Azərbaycanda kapitalın və əmlakın amnistiyasının tətbiqinin nəzərdən keçirildiyini deyən Vüsal Qasımlı bildirib ki, burada məqsəd iqtisadi artımın və investisiyaların maliyyə mənbələrinin genişləndirilməsidir: "Azərbaycanda əvvəllər də iqtisadi siyasətdə amnistiya elementləri olub. Prezident İlham Əliyevin təsdiq etdiyi "Vergi ödəyicilərinin 2017-ci ilin 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında" Qanun əslində müəyyən dərəcədə vergi amnistiyası kimi qəbul edilə bilərdi. Bu qanunla faiz və maliyyə sanksiyaları üzrə borclar silinmişdi. Dünya təcrübəsində də amnistiyanın müxtəlif növlərinə, həmçinin uğurlu və uğursuz nəticələrinə rast gəlmək mümkündür. Rusiyada 2015-ci ildən başlayaraq elan edilən iki amnistiya çərçivəsində 10 milyard avro vəsait deklarasiya edilib, bu ilin martında bitən üçüncü amnistiyanın nəticələri isə hələ açıqlanmayıb. Gəlirlərin və kapitalın amnistiyası Hindistanda beş dəfə, Portuqaliyada dörd dəfə, Fransa, Avstriya və İrlandiyada iki dəfə keçirilib. Dünyada tətbiq edilən kapital, əmlak, vergi və gəlir amnistiyaları gözləntiləri müxtəlif səviyyələrdə doğruldub".



Qeyd edilənlər fonunda artıq bəllidir ki, Azərbaycanda kapitalın və əmlakın amnistiyası 2020-ci ilin aprel-dekabr ayları ərzində nəzərdən keçiriləcək. Bu, iqtisadi artımın və investisiyaların maliyyə mənbələrinin genişləndirilməsi məqsədilə həyata keçiriləcək və Nazirlər Kabinetinin təsdiqlədiyi "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" prezident Sərəncamının icrası ilə bağlı Tədbirlər Planı"nda əksini tapıb. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin maliyyə analitiki Ayaz Museyibov bildirir ki, əmlak amnistiyası və ya kapital amnistiyası qeyri-maliyyə vəsaiti sayılır və daha çox investisiyaların qoyulması formasında təzahür edə bilər. Onun sözlərinə görə, bu, istehsal resursu kimi yeni iş yerlərinin yaradılmasında və işsizliyin aradan qaldırılmasında daxil olmuş maliyyə vəsaitləri üçün mühüm rol oynaya bilər: "Əlbəttə ki, bu birbaşa vətəndaşlara xeyirdir. Ölkəyə qayıtmış maliyyə resursları ilə yeni dəyərin yaradılmasıdır. Burda yalnız kapitalın və əmlakın amnistiyası deyil, həmçinin maliyyə borclarının amnistiyasından söhbət gedir. Ötən il ərzində toplanmış borcların və faizlərinin silinməsi olsun - bunlar amnistiya çərçivəsində nəzərdən keçirilir". Digər ekspertlər də bildirir ki, sözügedən amnistiya fonunda Azərbaycan iqtisadiyyatına qayıdan vəsaitlərin həcmi əhəmiyyətli dərəcədə artacaq. Amnistiya edilən əmlakın və gəlirin siyahısından, harda yerləşməsindən, amnistiyanın tətbiqi müddətindən asılı olaraq dünyada onun müxtəlif formaları tətbiq edilib. Azərbaycanda gəlirlərin və əmlakın leqallaşdırılması da məhz bu fonda indiki halda iqtisadiyyat üçün olduqca vacibdir. Kapitalın və əmlakın amnistiyası müxtəlif yollarla ölkədən çıxarılan kapitalın da qaytarılmasına gətirib çıxara bilər. Ekspertlərin fikrincə, amnistiya nəticəsində leqallaşan kapital ölkədə investisiya qoyuluşunun artımı, qiymətli kağızlar bazarının inkişafı, bank sektorunda canlanma, nağdsız dövriyyənin böyüməsi, büdcə gəlirlərinin artması və iqtisadi fəallığın yüksəlməsi ilə nəticələnə bilər. Yuxarıda qeyd olunduğu kimi, "kölgə iqtisadiyyat"ı ilə mübarizədə bir çox ölkələrin maliyyə amnistiyası və kapitalın, əmlakın amnistiyası praktikası var.

**Bir çox ölkələr bundan istifadə edərək yaxşı nəticələr də əldə edib. Yeri gəlmişkən, bu addımı effektiv atan ölkələrin praktikasında belə bir yanaşma da var ki, bunun üçün ayrıca bir fond yaradılır. Ekspertlərə görə, Azərbaycanın timsalında hansısa bir tərəqqi fondu yaratmaq olar. Maliyyə amnistiyasından gələn vəsaitləri tərəqqi fonduna toplamaqla hökumət onun iqtisadiyyata yönəldilməsi istiqamətində addım ata bilər. Eləcə də buradakı vəsait əsas etibarı ilə kiçik və orta sahibkarlığa aşağı faizli uzunmüddətli kreditlərə sərf olunmalıdır ki, bu, tərəqqiyə, yeni iş yerlərinin yaradılmasına gətirsin.**

***Nahid SALAYEV***

**Düşdüyü təcrid vəziyyətində sosial-iqtisadi durumu pisləşən Ermənistanı koronavirus pandemiyası daha böyük problemlərə düçar etməkdədir. Belə vəziyyətdə Ermənistan üçün növbəti sürpriz də Rusiyadan gəlməkdədir. Belə ki, Kreml İrəvana satılan qazın qiymətində dəyişiklik etmək niyyətindədir.**

# Ermənistanın dəngəsiz xarici siyasəti öz başında çatlayır - Moskva və Tehran İrəvandan üz döndərir...

Halbuki, İrəvan son bir ildə qaz qiymətinin aşağı salınması üçün Rusiyaya minnətçi düşmüşdü. Amma buna rəğmən, Ermənistanda hələ ötən ilin əvvəlindən Rusiya qazı bahalaşıb. Qazın min kubmetri150 dollardan 165 dollara yüksəlib. Amma Moskva qiymətlərin bir qədər də artmasını istisna etmir. Ümumiyyətlə, Rusiya üçün Ermənistana satılan qazın qiymətinin 200 dollara çatdırılması əsas məqsəddir. Buna rəğmən, İrəvan qazın qiymətinin aşağı salınmasını istəyir. Lakin Kreml birmənalı şəkildə İrəvanın istəyinə qarşı çıxır.

Hesab edilir ki, Moskva istəyinə nail olacaq. Məsələ burasındadır ki, Ermənistan ərazisində yeganə təbii qaz çatdıran şirkət "Qazprom Ermənistan"dır. Rusiyanın "Qazprom" şirkətinin törəmə müəssisəsi olan bu qurum hələ də ziyana işlədiyini bəyan edir. "1in.am" saytı yazır ki, sözügedən məsələ Rusiya prezidenti Vladimir Putin və Ermənistan baş naziri Nikol Paşinyan arasında telefon söhbəti zamanı yenidən müzakirə olunub: "Kremlin mətbuat xidmətinin yaydığı məlumatda deyilir ki, danışıq erməni tərəfinin təşəbbüsü ilə baş tutub. Qeyd edilir ki, danışıq zamanı Putin və Paşinyan ikitərəfli əməkdaşlığın aktual məsələlərinə, həmçinin Avrasiya İqtisadi Birliyi xəttilə qarşılıqlı əlaqə məsələsinə də toxunublar. Bundan əlavə, gələcək təmasların qrafiki razılaşdırılıb. Düzdür, Putinin sonradan yenə Paşinyanla nə dərəcədə tamasda olacağı sual altındadır. Çünki son həftələrdə belə təəssürat yaranır ki, erməni tərəfinin Moskva ilə təmasları yalnız baş nazir Mişustinlə məhdudlaşır. Bu, əlbəttə, erməni-rus münasibətlərinin səviyyəsini əhəmiyyətli dərəcədə aşağı endirir. Yeri gəlmişkən, bu durum son günlərdə bizim ekspert dairələrində aktiv müzakirə olunur, hətta müəyyən spekulyasiyaya məruz qalır. Bu fonda o da qayğı yaradır ki, Putinlə telefon danışığı barədə rəsmi İrəvan və Moskvanın yaydığı məlumatlarda, ən azı, vurğularda əhəmiyyətli fərq var. Rusiyanın bizim artıq təqdim etdiyimiz rəsmi məlumatında qaz haqqında bir söz də yoxdur. Halbuki, Ermənistan hökumətinin mətbuat xidmətinin yaydığı məlumatda qeyd edilir ki, tərəflər Ermənistana təbii qazın verilməsilə bağlı məsələləri də müzakirə ediblər. Diqqətçəkəndir ki, Nikol Paşinyan feysbukda 4 saatlıq birbaşa efirdə olan zaman Rusiya prezidentilə aralarındakı telefon danışığının mahiyyətinin bir sıra təfərrüatları haqqında məlumat verib. Baş nazir qeyd edib ki, bu gün bizim qaz sistemindən effektli istifadə ilə bağlı problemimiz var, bunu həll etməliyik. O deyib ki, baş nazirin müavini Mqer Qriqoryan qazın qiymətinin endirilməsi üçün hökumətin adından "Qazprom"a müraciət edib. Putinin nə cavab verdiyi isə aydın deyil, çünki baş nazir bu barədə təfərrüata varmayıb. Ancaq mövcud qeyri-müəyyənlikdən çıxış edərək nəticə çıxarmaq olar. Kreml özünün yaydığı məlumatda qaz məsələsini gündəlik məsələsi hesab etmirsə, güman etmək olar ki, Moskvada rəsmi İrəvanın prinsipial hesab etdiyi bu məsələni - sərhəddə verilən qazın qiymətinin aşağı salınmasını müzakirə etmək niyyətində deyillər. Əlbəttə, Moskvanın belə yanaşması özlüyündə AİB-nin mövcudluğunu mənasız edir. Lakin o da faktdır ki, Rusiyada bənzər strukturları böyük dövlətçilik gündəliyinə xidmət etmək lazım olduqda xatırlayırlar. Beləliklə, qazın tarifi məsələsi kölgədə qalmağa davam edir və hətta Nikol Paşinyanın feysbukdakı canlı yayımı da bu məsələyə aydınlıq gətirməyib". Belə vəziyyətdə Rusiyanın qaz qiymətini artırması tamamilə gözlənilən sayılır. İrəvan elə bu səbəbdən bəyan edir ki, ölkə İran qazının alınması imkanlarını nəzərdən keçirir. Yeri gəlmişkən, bunu ondan əvvəlki hökumət də istisna etmirdi. Amma ABŞ və Rusiya İrəvanın bu niyyətinə qarşıdır. Digər tərəfdən İran da artıq buna müsbət baxmır. Çünki İranın istəyinin əksinə olaraq, Ermənistan İsraildə səfirlik açmağa hazırlaşır. Buna isə Tehranın sərt reaksiyaları artır. İran parlamenti sədrinin beynəlxalq məsələlər üzrə müavini Hüseyn Əmir Abdullahiyan qeyd edir: "Ermənistanın bu addımı Fələstin xalqının mənafeyi ilə təzaddadır, eləcə də bölgənin təhlükəsizliyi və sabitliyinə mənfi təsir göstərəcək". O, Ermənistanın İsraildə səfirlik açmaq planını qınayıb və rəsmi İrəvanı bu addımı atmamağa çağırıb. İranın JAVAN agentliyinin yazısında isə daha sərt ifadələr yer alıb: "İrəvan-Təl-Əviv-Vaşinqton strateji alyansına qarşı müqaviməti gücləndirmək məqsədilə İran bölgədəki müsəlman ölkələri ilə səylərini artırmalıdır.



**Ermənistanın İsraildə səfirlik açması o deməkdir ki, İrana düşmən olan dövlət sərhədimizə gəlib çıxıb. Bu, İranın milli təhlükəsizlizliyinə təhdiddir". Qeyd edilir ki, belə vəziyyət qarşılıqlı iqtisadi əlaqələr üçün də təhdiddir. Ərdəbil şəhərinin imam cüməsi Ayətullah Seyid Həsən Amuli Nikol Paşinyanın İsraildə səfirlik açmaq istəyini təhlükəli hal adlandıraraq İrəvanın bu addımının İranın maraqlarına zidd olduğunu bildirib. Belə vəziyyətdə İranın Ermənistana qaz satması da inandırıcı sayılmır.**

***Ramil QULİYEV***

# Rusiya-Azərbaycan hərbi aviaticarət razılaşması - Ermənistanda narahatlıq və anti-Rusiya isterikası...

**Azərbaycanla Rusiya arasında hərbi sahədə əməkdaşlığın genişlənməsi Ermənistanı ciddi narahat etməyə başlayıb. Məhz buna görə də, erməni mediasında və siyasi kuluarlarında radikal anti-Rusiya çağırışları yer almağa başlayıb.**

## *İbrahim Rüstəmli: "Heç vaxt ruhdan düşmədən konkret mövqe sergiləməyimiz bizim milli maraqlarımızın əsl təminatçısı olacaq"*



Qeyd edək ki, Azərbaycan mütəxəssislərindən ibarət nümayəndə heyəti bugünlərdə Rusiyanın "Suxoy" şirkətinin və "MiQ" korporasiyasının zavodlarına səfər edib. Nümayəndə heyəti Rusiyada Su-35 və MiQ-35 döyüş təyyarələri istehsal edən hərbi zavodlarda olub. Rusiyanın qlobal silah bazarının liderlərindən biri olan "Rosoboroneksport" şirkətinin nümayəndələri və hərbi zavodların rəhbərliyi ilə keçirilən görüşlərdə ölkəmizin Rusiya istehsalı olan ən müasir döyüş təyyarələrinin alınmasında maraqlı olduğu bildirilib. Rusiya tərəfi, öz növbəsində, Azərbaycana Hərbi Hava Qüvvələrimizin ehtiyaclarını ödəyəcək sayda döyüş təyyarələrinin təqdim edilməsinə hazır olduğunu bildirib.

Erməni mediası Rusiyanın bu əməlini hətta Moskvanın öz dövləti maraqlarını satması kimi qələmə verib. Ermənistanın bu aşırı narahatlığı və orada hökm sürən anti-Rusiya ovqatını nə ilə izah etmək olar?

Hərbi-siyasi ekspert İbrahim Rüstəmli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistan istisna olmaqla, Azərbaycanın yaxın qonşuları ilə dərin hərbi, siyasi əlaqələri mövcuddur:"Bu əlaqələrin miqyası çox genişdir. Yaxın müttəfiqlər sırasında ilk yeri Türkiyə ilə Rusiya tutur. Bir dövlət kimi Rusiya üçün silah ixracı ciddi əhəmiyyət kəsb edir. Onlar gəlirlərinin böyük hissəsini məhz silah satışından əldə edirlər. Rusiya silahı həm də etibarlı sayılır. Çünki ölkə üzrə tam ixtisaslaşıb. Rusiya silahlarının tərəfimizdən alınması bizə, hərbi üstünlüklə yanaşı, siyasi dividendlər də gətirmiş olur. Burada sətiraltı məqamlar da var. Hər bir təmas ölkələr arasındakı münasibətlərin yaxşılaşmasına xidmət edir. Azərbaycanın həmin ölkədən silah alışı yüksələn xətlə davam edir. Bir arada Ermənistan Rusiyanın bizə silah satmasına etiraz etmişdi. Rusiyadan buna çox konkret cavab verilmişdi ki, rəsmi Moskva kimə istəsə silah sata bilər. Belarusla da onların analoji problemi yaşanmışdı, onda da eyni cavabı almışdılar. Ermənistanın başlıca narahatlığı silahla bağlı deyil, onlar əsasən Azərbaycanın Rusiya ilə yaxınlaşmasından ehtiyat edirlər. Bilirlər ki, belə yaxınlıq Ermənistanı Rusiyadan daha da uzaqlaşdırır. Onlar hər cür yalana, riyakarlığa əl ata bilirlər.

Onların qiymətini Rusiya politoloqlarından biri yaxşı vermişdi. Demişdi ki, Ermənistan özünə ər axtaran ayağı sürüşkən qadına bənzəyir. Çox düzgün obraz formalaşdırmışdı. Biz bunlara əhəmiyyət verməməliyik. Bütün bunlar Azərbaycanın artan siyasi və hərbi gücündən xəbər verir. Heç vaxt ruhdan düşmədən konkret mövqe sergiləməyimiz bizim milli maraqlarımızın əsl təminatçısı olacaq".

***Məhəmmədəli QƏRİBLİ***

---

# İran, nəhayət, Ermənistanın siyasi qardaşlıq arxasındakı əsl sifətini görür - İsraildə səfirlik...

**Ermənistan İsraildə səfirlik açmağa hazırlaşır. Bu haqda danışıqlar bir ildir gedir. Ermənistanın Baş naziri Nikol Paşinyan qərarını verib, hətta bu məqsədlə Xarici İşlər nazirini İsrailə də göndərmişdi. Errmənistanla İsrail arasında səfirliyin açılması məqsədilə danışıqların aparıldığı dövrdə İrandan elə bir reaksiya yox idi.**

## *Əli Orucov: "Ermənistanın İsraildə səfirlik açmaq haqqında qərarının İranda sərt qarşılanması başadüşüləndir"*



İndi isə vəziyyət fərqlidir. Bu arada Tehranın sərt reaksiyaları artır ki, bu da Ermənistan hakimiyyəti üçün gözlənilməz oldu.

Belə ki, İran Parlamenti sədrinin beynəlxalq məsələlər üzrə müavini Hüseyn Əmir Abdullahiya Ermənistanın İsraildə səfirlik açmaq planını qınayıb və rəsmi İrəvanı bu addımı atmamağa çağırıb: "Ermənistanın bu addımı Fələstin xalqının mənafeyi ilə təzaddadır, eləcə də bölgənin təhlükəsizliyi və sabitliyinə mənfi təsir göstərəcək".

İrandan növbəti sərt açıqlama Ərdəbil şəhərinin imam cüməsi Ayətullah Seyid Həsən Amulidən gəlib. Nikol Paşinyanın İsraildə səfirlik açmaq istəyini təhlükəli adlandıran Amuli İrəvanın bu addımının İranın maraqlarına zidd olduğunu bildirib.

İranın JAVAN agentliyinin yazısında isə daha sərt ifadələr yer alıb: "Ermənistanın İsraildə səfirlik açması o deməkdir ki, İrana düşmən olan dövlət sərhədimizə gəlib çıxıb. Bu, İranın milli təhlükəsizliyinə təhdiddir".

Belə görünür ki, İran, nəhayət, Ermənistanın riyakarlığının fərqinə varmağa başlayıb. Bəlli olur ki, Ermənistanın İranla münasibətləri səmimi deyil. Vəziyyət İranın əleyhinə dəyişən kimi, bu dövlətə ilk arxa çevirən məhz Ermənistan olacaq.

## *"Erməni xisləti burda da özünü büruzə verdi"*

Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, bu, erməni xislətinin necə təhlükəli olmasının göstəricisidir: "Ermənistanın İsraildə səfirlik açmaq haqqında qərarının İranda sərt qarşılanması başadüşüləndir. Çünki rəsmi Tehran Ermənistanın həyati əhəmiyyət daşıyan nəfəsliyi olub və bu ölkəyə hər cür dəstəyini əsirgəməyib. İran olmasaydı, Ermənistan çoxdan ağır böhrana sürüklənərdi və bundan çıxa bilməzdi. Buna baxmayaraq, erməni xisləti burda da özünü büruzə verdi. İrəvan Rusiyaya xəyanət etdiyi kimi, İrana da xəyanət yolunu tutur. Ən ağır və çətin durumlarda müsəlman ölkə olan İran Ermənistana arxa-dayaq durub, təmənnasız dəstək verib.

İranın rəsmi dairələrini bu cür qıcıqlandıran da məhz sözügedən amildir.

Tehran İrəvanın bu xəyanətini həzm edə bilmir. Lakin İranın bütün cəhdlərinə baxmayaraq, Ermənistan İsraildə səfirliyini açacaq. Çünki dünyanın düzəninin dəyişdiyini hiss edən Ermənistan İran və Rusiya kimi müttəfiqləri ilə müəyyən məsafələr saxlamağa çalışır. Doğrudur, bu, risqli addım olsa da, Ermənistan buna gedəcək. Məsələnin digər tərəfi ondan ibarətdir ki, İranın Ermənistana dəstəyini tam kəsəcəyini düşünmürəm. Çünki İranın fars-molla rejimi ilə İrəvanın Azərbaycana baxışlarında ortaq mövqelər çoxdur".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Təcrid vəziyyəti Ermənistanın işğal siyasətini dalana dirəyir - hökumət daxilində çatlar dərinləşir, iqtisadi çöküş xaotik vəziyyət alır və... koronavirus...

**Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Ermənistanın qarşıdakı dövr ərzində daha zəif mövqe sahibinə çevrilməsi qaçılmaz hal sayılır. Məsələ burasındadır ki, son vəziyyətin təhlili Ermənistanın çöküş dinamikasının daha intensiv xarakter aldığını üzə çaxarıb. Koronavirus epidemiyası isə, öz növbəsində, prosesin daha dinamik getməsinə rəvac verib.**

Qeyd edilənlərlə ilgili Ermənistanın "politik.am" nəşri yazır ki, ölkəni mümkün çöküşdən xilas etmək üçün hakimiyyət hansısa real siyasət və proqrama malik deyil. Nəşrdə qeyd olunur ki, bugünə qədər acınacaqlı kadr vəziyyəti, anlaşılmaz iqtisadi siyasət, ayrı-ayrı nazirlərin və nazirliklərin birinin digərindən "bixəbər" vəziyyəti, bir sözlə, bu gün hökumət daxilində mövcud olan, demək olar ki, xaotik vəziyyətin "pullu feyklər" ordusunun yaydığı "tüstü örtüyü" ilə görünməz olmasına çalışılırdı: "Pandemiyanın bütün bu acınacaqlı uyuşma qoxusunun havaya səpilməsini sürətləndirdiyini söyləmək olar. Təsadüfi deyil ki, zaman-zaman mətbuat, hətta Ermənistanın və bu hakimiyyətin siyasi həyatı ilə maraqlanan ayrı-ayrı ölkələrin səfirliklərinin və ya super güclərin öz sorğularını keçirməsi və nəticələrdən narahat olması, Paşinyanın söylədiklərini etməməsini qınayan materiallar dərc edir, məcazi mənada "Qız vaxtları" olan reytinqə hələ sahib olmadığını göstərirlər. Hökumət daxilindəkilər də reytinqdə nəzərəçarpacaq dərəcədə azalma olduğunu görürlər. Əlbəttə ki, yaxın günlərin birində Paşinyanın "gəmisinin batacağını" başa düşürlər və o üzdən lazımi anda xilas olmaq üçün batan gəmidən atlaya biləcəkləri "torpaqlar" tapmağı bacarmalıdırlar".

Yazıda yer alan fikirlərə görə, Paşinyanla batmağın heç bir mənası yoxdur:"Bu dövrdə onsuz da komandadakı gizli çatlar daha da dərinləşir və hakim piramidanın bir çox nümayəndəsi ayaqda qalmaq üçün gələcək siyasi tənzimləmə mərhələsində öz yerlərini tapmağa, su üzərində qalmağa çalışır. Bunun özü ümidsizliyə və çaxnaşmaya səbəb olur və dilə gətirilməsə də, yenə də hər şeyə təsir edir. Əlbəttə, Paşinyan da bütün bunları başa düşür. Üstəlik, bu barədə hətta ona məruzə edildiyi də məlum olub. Başqa cür ola da bilməzdi, çünki Vanetsyan və Osipyanla bağlı baş verənlərdən sonra Paşinyan ilkin turda komanda yoldaşlarının etimadını itirdi və hətta mediada yayılan məlumatlara görə, nəzarətin qurulmasını və xüsusi qovluqların tərtib edilməsini əmr edib. Bu nəzarətin daha da gücləndirildiyi deyilir. Axı Paşinyan başa düşür ki, parlament respublikası şəraitində komandanın dağılması onun uğursuzluğuna səbəb ola bilər. Pandemiya dövründə, bəlkə də ağlasığmaz bir şəkildə sərt siyasi addımlar atmayacaq, ancaq mümkündür ki, virusu aradan qaldırdıqdan sonra, əlbəttə ki müvəffəq olsa, vəziyyəti cilovlamağa çalışacaq, çünki pandemiyanı dəf etdikdən sonra başqa bir dünyada və Ermənistanda yaşayacağımız göz qabağındadır. Baş qaldıracaq proseslər Paşinyanın məğlubiyyətini daha da yaxınlaşdıracaq". Yazıda qeyd edilir ki, belə vəziyyətdə Paşinyanın rəqibləri daha da fəallaşaraq, elə baş nazirin yanında yer alanlarla hökumət rəhbərini devirməyə çalışacaqlar. Maraqlıdır ki, yaranmış vəziyyətdə "Qarabağ klanı" Nikol Paşinyanı daha çox hədələməyə başlayıb. Ermənistanın "İrates" nəşri isə yazır ki, Paşinyanın komandasında yer alanların bir çoxu da artıq baş nazirə qarşı olanlarla bir sırada yer almaq niyyətindədir:"Elə bu səbəbdəndir ki, Paşinyan indi daha tez-tez dövlət idarəetmə sisteminin hələ də inqilaba müqavimət göstərməsindən dəm vurur. Əslində, nəinki bütün sahələrdə "inqilab"ın başa çatması, həmçinin dövlət sisteminin fərqli bir məntiqlə işləməyə başlaması Paşinyanı narahat edir. "Mənim addımım" fraksiyasında olduğu kimi, idarəetmə dairələrində də Paşinyanın tərəfdarları yoxdur". Erməni siyasi şərhçi Aram Amatuni də məsələyə bu prizmadan nəzər salaraq bildirir:"Hakimiyyət dəyişikliyindən sonra Ermənistanda formalaşan hakimiyyət bir kollektivlikdir, bəzən birbirinə zidd olan elementlər toplusudur". Erməni politoloq Armen Badalyan isə bildirir ki, Paşinyanın davranışları onun komanda üzvlərini də bezdirib. Onun sözlərinə görə, Ermənistan Respublika Partiyasının artıq iki ildir hakimiyyətdə olmamasına baxmayaraq, Ermənistan hələ də investisiyalara malik deyil:"Bu durumda Paşinyanın reytinqinin düşməsi təbiidir. Belə vəziyyətdə Paşinyan vəziyyəti lehinə dəyişmək üçün yeni düşmənlər axtarır. İndi bu "düşmən" rolunda onun bəzi komanda üzvləri çıxış edir. Paşinyanın qəzəbinə tuş gələn məmurlar keçmiş hakimiyyəti istəyirlər. Məhz bu fonda da ölkədə yeni hakimiyyt çaxnaşması tamamilə gözlənilməzdir". Ölkədə açır sosial-iqtisadi durum da əhali tərəfindən Paşinyana dəstəyin daha da azalması ilə müşayiət olunur. Ermənistan Konstruktiv Partiyasının sədri Andreas Qukasyan bildirir ki, yaranmış problemlərin həlli istiqamətində ortaya real iş qoymaq əvəzinə, Nikol Paşinyan sosial şəbəkədə canlı yayıma çıxaraq cəfəng açıqlamalar verir. Qukasyanın sözlərinə görə, Paşinyan ölkənin iqtisadi fəlakətə sürükləndiyini hələ də dərk edə bilmir. Bunu erməni iş adamı Norayr Qevorkyan da xüsusi vurğulayır. O bildirir ki, Ermənistanın iqtisadi həyatı üçün çox vacib olan məsələlərdən baş nazirin xəbəri yoxdur:"Məsələn, cənab Paşinyan hələ də bilmir ki, Ermənistana tranzit baxımından vacib olan Yuxarı Lars keçidində acınacaqlı vəziyyət hökm sürür. Ermənistandan Rusiyaya doğru və əks tərəfə hərəkət edən heç bir yük, heç bir erməni yük avtomobilinə üstünlük yoxdur. Paşinyana ya nə baş verdiyi barədə məlumat verilmir, ya da o hansısa rel iş görmək iqtidarında deyil. Məsələ nə hava, nə də karantindir. Osetiya gömrükçüləri istədiklərini edirlər, hər avtomobildən 10000 rubl istəyirlər ki, pul qazansınlar, kim pul verməsə və ya az ödəyirsə, günlərlə burda dayanıb qalır, 9 gündür dayanıb burda qalan erməni maşınları var. Demək olar ki, bütün spirtli içkilər yoxlanılır və yoxlama təhdidi altında hər maşından kağız olmadan və heç bir səbəb olmadan bir neçə qutu spirtli alkoqol içkisi götürülür. Ermənistan Respublikasına hörmətsizlikdir, yaşıl dəhliz yoxdur, bu işlə məşğul olunmasa, Ermənistanda durum daha da pisləşəcək". İş adamı vurğulayır ki, Ermənistanın iqtisadi inkişafı adi vətəndaşların həyat səviyyəsinin yüksəlməsinə təsir etmir. Belə vəziyyətdə Ermənistanın təcrid durumunun genişlənməsi isə sadə vətəndaşların, iş adamlarına, idxal və ixracatla məşğul olanlara, onun fikrincə, əhəmiyyətli dərəcədə pis təsir edəcək. O, vəziyyətdən çıxış yolu olmadığını da bildirib və bu durumda ölkədə sosial narazılığın daha da dərinləşəcəyini vurğulayıb. Beləliklə, həm komandası daxilində ziddiyyət yaşayan, həm də ölkəni dərin böhrana sürükləyən mövcud Ermənistan hakimiyyətinin işğal siyasətini davam etdirməsi də mümkünsüz sayılır. Bu durumda təcrid vəziyyəti də Ermənistanın işğal siyasətini davam etdirməsini mümkünsüz edir. Bütün bunlar bir daha təsdiq edir ki, Qarabağ münaqişəsinin mövcudluğu və sərhədlərin bağlı olması Ermənistanın durumunu pisləşdirir, iqtisadiyyatını boğaraq onu inkişafdan məhrum edir. Halbuki, belə vəziyyətdə Azərbaycan bütün regional layihələrin aparıcı qüvvəsinə çevrilir. Bununla Azərbaycan və Ermənistanın inkişaf göstəriciləri arasında fərq də artır. Ermənistan üçün yeganə çıxış yolu münaqişənin kompromislər əsasında tezliklə həlli istiqamətində müvafiq addımlar atmasıdır. İndilikdə isə Azərbaycanın Ermənistanı təcrid siyasəti öz müsbət nəticəsini verir. Real vəziyyət həm də onu göstərir ki, təcrid vəziyyətinə düşməsi səbəbindən Ermənistanın ötən dövrdə daxili iqtisadi potensial hesabına deyil, xaricdən verilən ianələr hesabına mövcud olub. Belə ki, son beş ildə xaricdəki fiziki şəxslər Ermənistana 9,8 milyard dollar gətiriblərsə, Ermənistanın dövlət olaraq ixracatı həmin müddət üçün bundan 800 milyon dollar azdır. İndi əsas problem xaricdən gələn vəsaitin də azalmağa doğru getməsidir. Bu vəsait azalmaqda davam edərsə, təcrid vəziyyəti Ermənistanı daha geniş miqyasda sarsıdacaq. Vəsaitin azalması isə qaçılmaz sayılır. Belə ki erməni diaspor təşkilatlarının Ermənistana yardımı son illər daim azalmaqdadır. Artıq Amerikadakı diaspor qurumları, demək olar ki, bu ölkəyə çox az miqdarda yardım göstərir. Rusiyadakı diaspor isə Moskvadan gələn göstərişlə Ermənistana pul ayırmır. Erməni mediası yazır ki, bu durumda ABŞ hökumətinin yardımı azaltması ölkə üçün daha bir zərbədir. Erməni ekspert Qarpis Paşoyan bu vəziyyəti Ermənistan hökumətinin ən böyük məğlubiyyətlərindən biri kimi qiymətləndirir: "Son iki ildə Vaşinqtonla konstruktiv dialoqa başlamaq üçün faktiki olaraq heç bir iş görülməyib. Üstəlik, Paşinyanın kabineti ardıcıl fəaliyyəti ilə Ermənistan-Amerika əməkdaşlığının ən pis və əlverişsiz mərhələsinin şahidi oldu.

Dövlətlərarası münasibətlər heç vaxt belə soyuq və qeyri-müəyyən olmayıb. Ermənistanın məğlubiyyəti, şübhəsiz ki, Azərbaycanın qələbəsidir. Bu vəziyyətin yaranmasına Azərbaycan lobbi təşkilatları da böyük rol oynayıb. Lakin Ermənistan və ümumilikdə erməni amili öz yerində olsaydı, Azərbaycan lobbisi heç vaxt bu şəkildə irəliləyiş əldə edə bilməzdi". O etiraf edir ki, Vaşinqton üçün Azərbaycanın həmişə Ermənistana nisbətən daha vacib əhəmiyyəti olub: "Bütün bunlarla yanaşı, bu geosiyasi üstünlük keçmişdə erməni amili olan tarazlıq manevrası ilə müqavimətlə qarşılaşıb. Tramp prezident olduqdan sonra Azərbaycanın əhəmiyyəti iki dəfə artdı, tarazlaşdırıcı erməni amili isə zəiflədi. Yəni ABŞ-ın üstünlüyü, Azərbaycan lobbiçiliyinin fəallaşması və erməni amilinin passivləşməsi kontekstində Vaşinqton erməni tərəfinə ciddi zərbə vuran yeni bir siyasət ortaya qoydu".

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap olunur.**

# Ermənilərin Qarabağa gəlmə xalq olduqları barədə dünya mediasında xəbərlər artır

**Ermənilərin Dağlıq Qarabağa İran və Türkiyə ərazisindən gəldiyi, onların bizim torpaqlara Çar Rusiyası tərəfindən köçürüldüyü faktdır. Uzun illər tarixçi və siyasətçilərimiz beynəlxalq aləmə ermənilərin hazırda Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanan Azərbaycan torpaqlarına gəlmə olduğunu çatdırmaq istiqamətində böyük səylər göstəriblər.**

Artıq bu səylər bəhrə verməkdədir. Ermənilərin Dağlıq Qarabağa gəlmə olduğu haqqında xarici mediada geniş məlumatlar yer alır, məqalələr dərc olunur.

Ermənilərin Qarabağa gəlmə olduğu faktına Albaniya mətbuatı da diqqət yetirib. Belə ki, Albaniya mətbuatı ermənilərin Qarabağa gəlmə olduğunu yazıb. Bu ölkənin "Nacional" qəzetində ermənilərin Dağlıq Qarabağa gəlmə olduqlarından bəhs edən "Tarixi abidələr: Marağa - 150" başlıqlı məqalə dərc olunub.

Diasporla İş üzrə Dövlət Komitəsindən mətbuata verilən məlumata görə, Albaniya-Azərbaycan Dostluq, Elm və Mədəniyyət Cəmiyyətinin sədri, tarixçi-alim Entela Muçonun köməyilə işıq üzü görmüş məqalə Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi İctimai Birliyinin sədri Fuad Hüseynzadənin müəllifliyi ilə nəşr olunub.

Məqalədə ermənilərin miqrasiyasının bir çox yazılı mənbədə qeyd olunduğuna diqqət cəlb edilib, müxtəlif illərdə İrandan və Türkiyədən ermənilərin Azərbaycan torpaqlarına köç etməsi konkret faktlarla göstərilib. Qeyd edilib ki, 1828-ci il fevralın 10-da Rusiya və İran arasında imzalanan Türkmənçay müqaviləsindən sonra ermənilərin kütləvi şəkildə Azərbaycan ərazilərinə köçürülməsinə başlanıb. Təkcə 1828-1829-cu illərdə İrandan 40-50 min, Türkiyədən isə 90 min erməni Azərbaycana köçürülüb.

Qəzetdə bildirilir: "...ermənilər Qarabağa gəlmələri münasibətilə "Marağa-150" abidəsini ucaldıblar. "Marağa-150" abidəsi 1978-ci ildə ermənilərin özləri tərəfindən İran Marağasından ilk 200 ailənin Qarabağa köçürülməsinin 150 illiyi ilə əlaqədar inşa

**Qasım Hacıyev:** *"Ermənilər nə qədər gizlətsələr də, artıq dünya alimləri və mediası "Marağa-150" abidəsindən, bu abidənin ermənilərin Dağlıq Qarabağa köçürülməsinin 150 illiyi münasibətilə qoyulduğundan yazır"*



edilib. Adi çay daşlarından qurulan abidənin üzərində erməni dilində "Marağa-150" yazısı öz əksini tapıb və oxşar abidələr Xankəndi şəhərində, Tərtər rayonunun Çaylı kəndində də inşa edilib".

Məqalədə qeyd olunur ki, 2016-cı ildə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Furio de Angelisi Tərtər rayonunda səfərdə olarkən Şıxarx kəndində "Marağa-150" abidəsinə baxıb və həmin abidənin şəkillərini çəkib.

Qeyd edək ki, sözügedən mövzu artıq Albaniya dövlət radiosunun da diqqətini cəlb edib və radio tarixçi-alim Entela Muçonun iştirakı ilə bu mövzudan bəhs etmək niyyətindədir.

Mövzunu şərh edən Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev hesab edir ki, ermənilərin bizim torpaqlara gəlmə olduğunun dünya mediasında da işıq üzü görməsi artıq bu barədə həqiqətlərin üzə çıxması deməkdir: "Dağlıq Qarabağ tarixi Azərbaycan torpağıdır və orada heç bir erməni izi yoxdur. Azərbaycan artıq uzun illərdir ermənilərin Dağlıq Qarabağa və ətraf rayonlara, ümumiyyətlə, Cənubi Qafqaza gəlmə olduğunu yazır, elmi əsaslarla sübut edirdi, amma bəziləri erməni təbliğatına uyduğu üçün bu fakta əhəmiyyət vermək istəmirdilər. Ermənilərin yalan-saxta siyasəti iflasa uğrayır və bu barədə xarici ölkə mediasında geniş, məzmunlu məqalələr çap olunur. Fakt budur ki, ermənilər İran və Türkiyə ərazisindən Dağlıq Qarabağa köçüb gəliblər, daha doğrusu, köçürülüblər. Marağa abidəsi isə ermənilərin Dağlıq Qarabağa köçürülməsinin 150 illiyi münasibətilə qoyulmuşdu. Marağa abidəsi ermənilərin Dağlıq Qarabağa gəlmə olduğunu sübut edən əsas faktorlardan biri idi. Sonradan, bildiyiniz kimi, ermənilər izi itirmək, tarixi saxtalaşdırmaq və Azərbaycan torpaqlarında "yerli xalq" olduqlarını "təsdiqlətmək" məqsədilə "Marağa-150" abidəsini dağıtdılar".

Q.Hacıyevin fikrincə, ermənilərin Dağlıq Qarabağa gəlmə olduğuna xarici medianın, xarici ölkə tarixçilərinin diqqət yetirməsi və faktı araşdırması həm də ermənilərin başqa dövlətlərə qarşı da irəli sürdükləri ərazi iddiasıdır. O qeyd etdi ki, bu gün ermənilər dünyanın bir çox dövlətindən torpaq, ərazi qoparmaq iddiasındadır: "Elə bir ölkə yoxdur ki, ermənilərin ora iddiası olmasın. Bu toplum o qədər saxtakar, o qədər acgöz, o qədər məkrlidir ki, bu artıq dünya tarixçilərinin, mediasının diqqətindən yayınmır. Ermənilərin Dağlıq Qarabağa gəlmə olduğunun artıq dünya mediasının diqqətini cəlb etməsi və onların buna nümunə olaraq "Marağa-150" abidəsinə xüsusi önəm verməsi təqdirəlayiqdir.

Çünki ermənilər nə qədər gizlətsələr də, ört-basdır etsələr də, artıq dünya alimləri və mediası "Marağa-150" abidəsindən, bu abidənin ermənilərin Dağlıq Qarabağa köçürülməsinin 150 illiyi münasibətilə qoyulduğundan yazır. Bu ifşaedici məqalələr isə erməniləri bir daha işğalçı xalq kimi tanıdır. Bilirsiniz ki, neçə ildir rus alimləri, eləcə də Avropa tarixçiləri ermənilərin Dağlıq Qarabağa gəlmə olduqlarını yazırlar, bunu tarixi faktlarla sübut edirlər. Hesab edirəm ki, ermənilərin Dağlıq Qarabağa gəlmə olduğu ilə bağlı yazıların xarici mediada işıq üzü görməsində Azərbaycan dövlətinin həyata keçirdiyi uğurlu xarici siyasətin rolu da az deyil" - deyə Q.Hacıyev vurğuladı.

***İradə SARIYEVA***

**Belarus Avropa Birliyinə koronavirus infeksiyasının ölkə ərazisində yayılmasının qarşısını almağa kömək olunması üçün müraciət edib. Bu barədə Avropa Birliyinin Təhlükəsizlik və xarici siyasət üzrə ali nümayəndəsi Jozep Borrel məlumat yayıb.**

# Dünya səhiyyə təşkilatının Belarusa məcburi karantin tətbiqi məsələsi - kütləvi insan sağlamlığı, ya dövlət suverenliyi...

## *Yeganə Hacıyeva: "Belarus ölkədə karantinin tətbiq edilməsinə məcbur qalacaq"*



Onun sözlərinə görə, rəsmi Minsk yaranmış situasiyada səhiyyə sisteminə dəstək göstərilməsi, habelə pandemiyanın makroiqtisadi nəticələrinin aradan qaldırılması işində yardım olunması xahişini çatdırıb. Jozep Borrel Birliyin hazırda bu sorğuya necə cavab verəcəyi üzərində düşünülyünü söyləyib.

Belarusa göstəriləcək yardımın həcminin 60 milyon avro civarında olması gözlənilir. Bundan daha öncə Belarusun 150 min vətəndaşının imzası ilə Ümumdünya Səhiyyə Təşkilatına ölkədə karantin vəziyyətinin elan olunması tələbinin yer aldığı petisiya təqdim olunub. ÜST təmsilçiləri vəziyyəti yerində öyrənmək üçün aprel ayının 11-nə qədər ölkədə qalacaqlar. Son məlumatlara görə, Belarusda 1066 adam koronavirusa yoluxub, onlardan 13-ü vəfat edib, 77-si isə sağalıb. Bütün bunlar onu deməyə əsas verirmi ki, ÜST Belarusda məcburi karantin tətbiq edə bilər?

Beynəlxalq məsələlər üzrə ekspert Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, planetimizdə Antarktidadan başqa 5 qitədə və 190-dan çox ölkədə yayılan koronavirusa görə, demək olar ki, bütün dövlətlər kütləvi toplaşma və səyahətə məhdudiyyətlər qoyub, ölkəyə giriş-çıxışı bağlayıb, məktəblər, restoranlar, iş yerləri və s. bağlanıb, əhaliyə sosial təcridlə müşayiət olunan sərt karantin qaydaları və s. tətbiq edib:"Koronavirus pandemiyasına görə ABŞ, Avropa və Asiyanın böyük korporasiyaları zavodların fəaliyyətini dayandırıb. Ford, General Motors və Tesla kimi nəhəng avtomobil şirkətləri xəstəlik üçün süni tənəffüs aparatları istehsal edir, qlobal ətir və spirtli içki şirkətləri əl üçün dezinfeksiyaedici məhsulllar istehsal edib ianə edir, yəni planetin böyük biznes nümayəndələri dünyanın COVİD-19 virusu ilə mübarizəsinə öz töhfəsini verir. Microsoft qurucusu Bill Gates və Amazon şirkətinin rəhbəri Jeff Bezos birgə alyans yaradaraq koronavirusu təcili müəyyən edə bilən testlər yaradırlar: Microsoft qurucusunun fondu Seattle şəhərindəki Seattle Coronavirus Assessment Network (SCAN) qrupunu maliyyələşdirir, Amazon Care isə COVİD-19 testlərinin ehtiyacı olan ünvanlara təcili çatdırılması işini öz öhdəsinə götürüb və s. Lakin nə qədər təəccüblü olsa da, bu qlobal pandemiyanı ciddiyə almayan ölkələr də var. Məsələn, belə ölkələrdən biri də koronavirusa görə Avropada karantin elan etməyən tək ölkə Belarusdur. Belarusla iki həmsərhəd ölkədən birində - Ukraynada COVİD-19-a görə fövqəladə vəziyyət elan edilib, digər həmsərhəd ölkə Rusiyada məktəblər tətilə göndərilib. Bütün kütləvi tədbirlər və uçuşlar təxirə salınıb, lakin Belarus bu tip addımları nəinki atmır, əksinə, hökümətləri bu mövzuda karantin tətbiq edən ölkələri tənqid edir. Ölkənin sərhədləri açıqdır, insanlar səyahət edir, kinoteatrlar və teatrlar qapadılmayıb, kütləvi tədbirlərə qadağa qoyulmayıb, futbol çempionatları davam edir və s. Belarus prezidenti Aleksandr Lukaşenko koronavirusun qarşısını almaq üçün ölkə olaraq hər hansı tədbir görməyə ehtiyac olmadığını deyir və hətta "Koronavirusun müalicəsi traktor və spirtli içkilərdir" söyləyir. Aydın məsələdir ki, gəlirləri ən çox kənd təsərrüfatı sahəsində fəaliyyətdən əldə olunan ölkədə prezident bu fikirləri kənd təsərrüfatı sahəsində fəaliyyəti təşviq etmək üçün deyir. Buna baxmayaraq, virusun qlobal miqyasda yayılması ölkə əhalisində ciddi narahatlıq yaradıb. Sosial media üzərindən ÜST-ə petisiya ilə müraciət edən sivil cəmiyyət institutları ölkədə, qismən də olsa, sosial təcrid addımlarının atılmasına nail oldular, bəzi universitetlər tələbələrin ictimai nəqliyyatdan pik saatlarda istifadə etməməsi üçün dərsləri günorta saatlarına keçirdi, uşaq bağçaları və məktəblər işləməyə davam etsə də, valideynlərin övladlarını oraya göndəribgöndərməməyi barədə özlərinin qərar verə bilməsi haqqında qaydalar tətbiq edirldi və s. Sərhədlərin bağlanmasını isə belə izah etdilər ki, narahatlıq üçün əsas yoxdur, çünki xaricdən gələn hər kəs test olunur. Lukaşenko hədsiz narahatlığın və psixozun virusdan daha təhlükəli olduğunu bildirərək, bunun üçün də ölkənin kəşfiyyat xidməti idarələrinə xalq arasında panika yayan "alçaqları tutun" əmrini verib. Əlbəttə, belə məsuliyyətsiz yanaşma ölkədə koravirusa yoluxma hallarını artırdı və 7 aprel günü verilən məlumatlara görə, ölkədə 794 nəfər koronavirus xəstəsi var, onlardan 31 nəfəri süni nəfəs aparatlarına bağlanıb. Aprelin 6-dan 7-dək gündəlik artım ölkədə 160 xəstəni təşkil edir. Xəstəliyin belə kəskin artımı rəsmi instansiyaları pandemiyanın aradan qaldırılmasında kömək üçün xarici donorlara müraciət etməyə məcbur etdi.

**Avropa İttifaqının Xarici Siyasət və Təhlükəsizlik üzrə Ali nümayəndəsi Xosep Borrell bu ölkənin müraciəti əsasında Belarusa yardımın ediləcəyini bildirdi. Aİ diplomatiyasının rəhbəri Minskə ölkənin səhiyyə sisteminə dəstək və pandemiyanın makroiqtisadi nəticələrinin aradan qaldırılmasında kömək edəcəyini bildirdi. Yardımın alınması üçün Belarus höküməti ilə müəyyən sosial təcrid və karantin qaydalarının tətbiq edilməsi üzrə razılaşmanın mövcud olması haqqında fikirlər inkar olunsa da, məncə, epidemiyanın iqtisadiyyata vuracağı təsirlərdən ehtiyat edən Belarus ölkədə karantinin tətbiq eilməsinə məcbur qalacaq".**

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycanda ərzaq qıtlığı barədə təxribatçı şayiələri məqsədli şəkildə yayanlar...

*"Bu şayiələri yaymaq heç bir halda düzgün deyil və bu qəbulolunmazdır"*

**Azərbaycanda COVID-19-a yoluxma hallarının genişlənməməsi, başqa ölkələrdəki kimi, ölkəmizdə də daha çox insanın bu virusun qurbanına çevrilməməsi üçün dövlət tərəfindən karantin rejimi elan edildi. Onu da qeyd edək ki, karantin rejiminin elan edilməsi nəticəsində insanların evdən çölə çıxması məhdudlaşdırıldı, onların qarşısına yalnız zərurət olduğu halda bayıra çıxmaq tələbi qoyuldu.**



Koronavirusla mübarizə dövründə bəzi təxribatçı fikirlərin, şayiələrin də şahidi oluruq. Son günlər sosial şəbəkələrdə, eləcə də bəzi əldəqayırma saytlarda karantin dövründə ölkəmizdə ərzaq qıtlığı yaranacağı ilə bağlı şayiələr yayılır. Heç şübhəsiz ki, sosial şəbəkələrdə yayılan bu həqiqətə uyğun olmayan məlumatlara sadə vətəndaşlar arasında inananlar da tapılır. Şayiələrə uyan vətəndaşlarımız mümkün qədər daha çox ərzaq tədarükü görməyə çalışırlar. Bildiyimiz kimi, bu gün ölkəmizin heç bir iri, yaxud xırda mağazasında, supermarketlərdə ərzaq qıtlığı yaşanmır və həmişəki qaydada çeşidli ərzaq növləri təqdim olunur. Hazırda ölkəmizdə nə qida ilə bağlı hər hansı bir qıtlıq yaşanır, nə də bununla bağlı hər hansı bir proqnoz verilir. Azərbaycan dövləti, əlaqədar qurumlar dəfələrlə qeyd ediblər ki, ölkəmizdə heç bir ərzaq qıtlığı yaşanmır və bizdə belə bir problem yoxdur.

Karantin rejimi ilə əlaqədar ölkəmizdə ərzaq qıtlığı yaranacağı, yaxud yarandığı barədə şayiə yayan qüvvələrin bununla öz istəyinə çatmayacağını deyən "Novoye vremya" qəzetinin baş redaktoru Şakir Ağayev "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycanı istəməyən qüvvələr hər zaman belə təxribatlarla məşğul olublar: "Karantin rejimi vətəndaşlarımızın dünyəvi belə olan koronavirusdan qorunmasına xidmət edir. Bu rejimə çox ciddi riayət olunmalıdır. Bu iş yalnız dövlətin qoyduğu qayda-qanunlarla həll olunmur, gərək insanların özlərində də məsuliyyət olsun ki, qaydalara əməl etsinlər, nə qədər biz bu qaydalara əməl etsək, bir o qədər bu virusdan tez xilas olarıq. Qaldı ərzaq qıtlığı ilə bağlı qəsdən yayılan şayiələrə, bəzi insanları heç başa düşmürəm, bu əsassız məsələləri niyə yazırlar? Bu gün koronavirus xofundan, təlaşından sui-istifadə edərək müxtəlif şayiələr yayanların hansı məqsədə qulluq etdiyi məlumdur. Mən özüm bazara da, supermarketə də gedirəm, amma heç bir yerdə ərzaq qıtlığına rast gəlməmişəm. Əksinə, kənd təsərrüfatı məhsulları da mağazalarda, bazarlarda boldur. Mövsüm meyvə və tərəvəzlərindən xiyarın, pomidorun, çiyələyin qiyməti hələ bir qədər də ucuzlaşıb. Ona görə ki, hazırda restoranlar, kafelər, şadlq evləri işləmir, sərhədlər də bağlıdır, ölkə daxilində yetişdirilən məhsullar bütün aidiyyəti satış yerlərinə verilir və alıcıları da çoxdur. Azərbaycan bazarında heç bir ərzaq qıtlığı yoxdur, görünmür və hiss olunmur. Bu şayiələri yaymaq heç bir halda düzgün deyil və bu qəbulolunmazdır. Biz hazırda bəşəri bir düşmənlə - cinsiyyəti, dadı, iyi məlum olmayan koronavirusla mübarizə apardığımız bir vaxtda, təbii ki, belə şayiələri yazmaq, yaymaq düzgün deyil".

***Şakir Ağayev:** "Azərbaycan bazarında heç bir ərzaq qıtlığı yoxdur, görünmür və hiss olunmur"*

Ş.Ağayev qeyd etdi ki, bu gün Azərbaycanda ərzaq qıtlığına hələ rast gəlinməyib, indən sonra da rast gəlinməsi qətiyyən gözlənilmir. "Nazirlər Kabinetindən də bildirildi ki, ölkədə hələ üçaylıq ərzaq ehtiyatı var. Ümumiyyətlə, hesab edirəm ki, Azərbaycanda heç vaxt ərzaq qıtlığı baş verməyəcək. Bu şayiələri yaymaq düzgün deyil və onları qəbul etmirəm. Görülən işləri tənqid etmək də olar, nələrləsə razılaşmamaq da olar. Bəzi çatışmazlıqlar da ola bilər. Çünki ilk haldır ki, bu belə nəticəsində bütün dünya təcrid olunub. Amma dövlətin imkanları daxilində görülən işlərə obyektiv qiymət vermək lazımdır. Ərzaq qıtlığı ilə bağlı hər hansı bir panika yaratmağa ehtiyac yoxdur. Şükür Allaha, heç bir ərzaq qıtlığı yoxdur, vətəndaşlar da ərzaqla tam təmin olunurlar. Koronavirus bəlasından tez qurtaraq, insanlar işləsinlər, pulları olsun ki, ərzaqları ala bisinlər" - deyə Ş.Ağayev vurğuladı.

Qeyd edək ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın keçirdiyi mətbuat konfransında qurumun Mətbuat Xidmətinin rəhbəri İbrahim Məmmədov bu məsələyə aydınlıq gətirib: "Bu gün bizim üçaylıq ərzaq ehtiyatımız var. Altıaylıq müddətə də özümüzü sığortalamışıq".

Onun sözlərinə görə, ərzaqla bağlı problem olmayacaq: "Hazırlanan Tədbirlər Planına əsasən, iqtisadi itkilərin minimallaşdırılacağı gözlənilir ki, bu da ərzaqla təminatımızın zəmanətlərindəndir".

***İradə SARIYEVA***

# Azərbaycan hətta çətin şəraitlərdə də ünvanlı sosial yardımın çevrəsini genişləndirir - 13 faiz artım, 78 mindən çox ailə...

**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, ünvanlı dövlət sosial yardımının əhatə dairəsinin genişləndirilməsi, təyinatın sadələşdirilməsi və aztəminatlı ailələrə əlçatanlığının artırılması üçün işlər davam etdirilir.**



***İlqar Hüseynli:** "Hazırkı çətin vaxtda ünvanlı sosial yardımın əhatə dairəsinin genişləndirilməsi müsbət tendensiyadır"*

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, görülən işlər nəticəsində proqramın əhatə etdiyi ailələrin sayında növbəti artım baş verib. Məlum olub ki, təkcə son 10 gündə ünvanlı dövlət sosial yardımı alan ailələrin sayında 13,2 faiz artım qeydə alınmaqla, bu yardımı alan ailələrin sayı 9 100 vahid artıb. Hazırda 78 130 (330 minədək ailə üzvü) ailə sosial yardım alır. Hər ailəyə düşən yardımın orta məbləği 222 manata çatıb.

Onu da qeyd edək ki, dövlət başçısının 19 mart 2020-ci il tarixli Sərəncamının icrası ilə bağlı Nazirlər Kabinetinin təsdiqlədiyi Tədbirlər Planına uyğun olaraq, xüsusi karantin rejimi müddətində ünvanlı dövlət sosial yardımının təyin olunma müddəti bitən aztəminatlı ailələrə də bu yardımın verilməsi karantin rejimi başa çatdığı tarixdən sonrakı ayın 1-dək uzadılıb.

Görünən odur ki, ən çətin vəziyyətlərdə belə, Azərbaycan ünvanlı sosial yardım alanların əhatə dairəsinin genişləndirilməsinə çalışır. Hansı ki, koronavirus üzündən müəyyən çətinliklər yaranıb. O baxımdan indiki çətin dönəmdə sözügedən artım sosial baxımdan nə deməkdir?

Məsələyə münasibət bildirən sosial sahə üzrə ekspert İlqar Hüseynlinin sözlərinə görə, hazırkı çətin vaxtda ünvanlı sosial yardımın əhatə dairəsinin genişləndirilməsi müsbət tendensiyadır: "Koronavirusla əlaqədar sosial problemlərin həlli istiqamətində ən ciddi atılan addımlardan biri vətəndaşların maliyyə təminatının yaxşılaşdırılmasıdır. O cümlədən də birdəfəlik pul yardımlarının edilməsidir. Hər bir ölkənin imkanlarına görə bu yardımlar müxtəlif cür edilir. ABŞ-da, Avropa ölkələrində və digər inkişaf etmiş ölkələrdə bu praktika tətbiq edilir. O baxımdan hesab edirəm ki, indiki ağır dövrdə ünvanlı sosial yardımlar nə qədər çoxsaylı aztəminatlı ailəni əhatə etsə, bu bir o qədər cəmiyyətimiz üçün faydalıdır. Bu mənada istər ünvanlı sosial yardımların sayının artırılması, istərsə də vətəndaşlara aylıq kompensasiya müavinətlərinin verilməsi alqışlanmalıdır.

*"Bu, çoxsaylı aztəminatlı ailənin maddi durumuna müsbət təsir göstərəcək"*

Bu, çoxsaylı aztəminatlı ailənin maddi durumuna müsbət təsir göstərəcək. Hesab edirəm ki, bu imkandan nə qədər çoxsaylı ehtiyacı olan ailə istifadə etsə, bu, bir o qədər sosial baxımdan yaxşıdır. Nəticədə yaranan çətin vəziyyətdən çıxa bilərik".

***Vidadi ORDAHALLI***

# Azərbaycanda onlayn "Sosial etibarnamə" - fövqəladə şəraitdə daha bir vacib sosial xidmət asanlaşdırıldı...

**Karantin rejimi nəticəsində insanların evdən çıxmasına qoyulan məhdudiyyətlər, həmçinin, onların hansısa bir sənədləşmə problemini həll etmək üçün aidiyyəti qurumlara getməsinə də şamil edilib. Vətəndaşların sosial problemlərinin həll edilməsi üçün dövlət tərəfindən xüsusi tədbirlər həyata keçirilir.**

Bu gün vətəndaş bir sıra sosial problemlərin aradan qaldırılmasına evdən çıxmadan, onlayn xidmətdən istifadə edərək nail olur.

Koronavirus təhlükəsinin lokallaşdırılması və bu virusun daha geniş miqyasda yayılmasının qarşısının alınması üçün dövlətin tətbiq etdiyi karantin rejimində belə vətəndaşın problemləri həll edilir.

Məlum olduğu kimi, Ədliyyə Nazirliyi tərəfindən əhaliyə məsafədən göstərilən xidmətlərin genişləndirilməsi üzrə tədbirlər davam etdirilir.

Nazirlikdən baki-xeber.com-a bildirilib ki, bu məqsədlə müasir innovativ metodlardan istifadə olunmaqla yaradılmış "Mobil notariat" proqram təminatı vasitəsilə vətəndaşlara notariat ofisinə müraciət etmədən nəqliyyat vasitələrinin idarə olunmasına dair, həmçinin, vəkillərə verilən etibarnamələrin mobil telefonlar vasitəsilə elektron qaydada rəsmiləşdirilməsi imkanı yaradılıb. Artıq elektron qaydada rəsmiləşdirilən etibarnamələrin sayı minlərlə ölçülür.

Tətbiq edilən yeni xidmət vasitəsilə "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, pulsuz və ya güzəştli dərman yardımı almaq hüququ olan vətəndaşlara Səhiyyə Nazirliyi ilə əməkdaşlıqda həftənin bütün günü 24 saat ərzində həmin dərmanları əldə etmək üçün evlərini tərk etmədən dövlətin sosial proqramından yararlanmaq məqsədilə digər şəxslərə real vaxt rejimində elektron etibarnamə vermək imkanı yaradılıb.

Sosial etibarnamənin elektron qaydada verilməsi imkanının yaradılması karantin rejimi dövründə sağlamlığının qorunması üçün evlərini tərk etməyə məhdudiyyət qoyulan, bu xidmətlərin əsas istifadəçisi, yaşı 65-dən yuxarı olan vətəndaşlar üçün xüsusi əhəmiyyət kəsb edir.

07.04.2020-ci il tarixdən istifadəyə verilən və 100 mindən çox insanın faydalanacağı "Sosial etibarnamə"dən vətəndaşlar "AppStore" və "PlayStore" platformasından pulsuz "Mobil notariat" tətbiqini yükləyərək, habelə artıq istifadəçi olanlar isə proqramı yeniləməklə yararlana bilərlər.

Qeyd olunmalıdır ki, xüsusi karantin rejimində olan vətəndaşlarımızın durumuna həssas yanaşılaraq xidmət pulsuz göstəriləcək.

"Sosial etibarnamə"dən 100 mindən çox insanın faydalanacağını yüksək qiymətləndirən tanınmış vəkil, hüquqşünas Adəm Məmmədov bizimlə söhbətində bildirdi ki, karantin rejimi dövründə insanların sosial xidmətlərlə təmin edilməsinin diqqət mərkəzində saxlanılması vətəndaşlarımıza verilən dövlət dəstəyinin nümunəsidir.

O qeyd etdi ki, etibarnamələrin elektron qaydada alınması bir neçə ay bundan əvvəl də olub, amma ondan istifadəyə indiki kimi zərurət olmayıb: "Karantin rejimi ilə əlaqədar olaraq həyata keçirilən sosial izoloyasiya zamanı vətəndaşların evdən bayıra çıxması, eləcə də hansısa qurumların ofisinə gedib problemlərini həll etməsi çətin məsələdir. Ona görə də dövlət tərəfindən vətəndaş məmnunluğunun, onların rahatlığının təmin olunması üçün xüsusi sosial proqramlar, tətbiqlər işlənib hazırlanır və vətəndaşın istifadəsinə verilir. Karantin rejimi dövründə "Sosial etibarnamə"nin gündəmə gətirilməsi, ondan istifadə üçün vətəndaşlara şərait yaradılması, bu vasitədən 100 mindən çox insanın faydalana biləcəyi çox müsbət haldır. Bu gün elə hallar olur ki, vətəndaşın, xüsusən də yaşlı nəslin etibarnamə verməsinə zərurət yaranır. İndi etibarnamə vermək üçün vətəndaşlar çətinlik çəkməyəcəklər və "Sosial etibarnamə" proqramı vasitəsilə buna nail olacaqlar. Əvvəllər də bu proqram vardı, lakin indiki kimi aktual deyildi. Amma karantin rejimi "Sosial etibarnamə"ni aktuallaşdırdı".

A.Məmmədov hesab edir ki, karantin rejiminin tələblərinə uyğun onlayn xidmətin dirçəldilməsi və tətbiqi insanlarda çox müsbət vərdişlər yaradacaq, onlar həyatlarının sonrakı vaxtlarında da bundan istifadə edəcəklər.

Digər tanınmış vəkil, hüquqşünas Əziz Qəmbərov da hesab edir ki, "Sosial etibarnamə"nin reallaşdırılması vətəndaşlarımızın rahatlığına xidmət edir:




***Adəm Məmmədov:** "...bu vasitədən 100 mindən çox insanın faydalana biləcəyi çox müsbət haldır"*

***Əziz Qəmbərov:** "Xüsusən də "Sosial etibarnamə"nin karantin rejimi dövründə gerçəkləşdirilməsinin əhəmiyyəti böyükdür"*

"Hesab edirəm ki, bu olduqca yaxşı bir layihədir. Belə bir xidmətin gerçəkləşdirilməsi həm insanların vaxtına qənaət olunmasına, həm də notariuslarda saatlarla növbəyə durmalarının, eləcə də bəzi neqativ halların qarşısının alınması baxımından çox əhəmiyyətlidir. Xüsusən də "Sosial etibarnamə"nin karantin rejimi dövründə gerçəkləşdirilməsinin, ondan on minlərlə insanın faydalanmasının əhəmiyyəti böyükdür. İnsanlar evdən çıxmadan həmin proqramı telefonlarına yükləməklə asanlıqla etibarnamə problemini həll edəcəklər".

Ə.Qəmbərov hesab edir ki, "Sosial etibarnamə"nin vətəndaşlar üçün indiki şəraitdə faydası çoxdur və bu da vətəndaş məmnunluğuna xidmət edir. Dövlətin karantin rejimi dövründə vətəndaların sosial problemlərinin həlli üçün həyata keçirdiyi çoxsaylı işdən birinin də məhz "Sosial etibarnamə" layihəsi olduğunu qeyd edən hüquqşünasın sözlərinə görə, vətəndaşlar elektron qaydada onlara verilən etibarnamədən sui-istifadə etməməlidirlər. Belə hal baş verərsə, bunun cinayət əməli olduğunu deyən Ə.Qəmbərov hesab edir ki, bu ağır günlərdə bütün vətəndaşlar dövlətlə, əlaqədar qurumlarla həmrəylik nümayiş etdirməlidirlər.

***İradə SARIYEVA***

# Agentlik xətti ilə sahibkarlara güzəştli kreditin məbləği və müddəti artırıldı - 3 il, 15 min manat...

**Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaiti hesabına sahibkarlıq subyektlərinə verilən güzəştli kreditlərin məbləği artırılıb. Bununla bağlı Prezident İlham Əliyev "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" 2018-ci il 19 dekabr tarixli, 413 nömrəli Fərmanına dəyişiklik edib.**



Ölkə başçısının imzaladığı fərmanda, həmçinin, aqrar sahənin maliyyələşməsinin stimullaşdırılması ilə bağlı bir sıra məsələlər də öz əksini tapıb. Fərmanla "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası" dəyişdirilib. Qaydanın 5.1.1-ci yarımbəndində bildirilirdi ki, Agentliyin vəsaiti hesabına sahibkarlıq subyektlərinə 5000 manatadək mikrokreditlər verilə bilər. Dövlət başçısının yeni fərmanı ilə bu rəqəm 15000 manatadək qaldırılıb.

Kiçikhəcmli kreditlərin də məbləği artırılıb. Sənədin əvvəlki variantında yazılırdı ki, 5001 manatdan 30000 manatadək kiçikhəcmli kreditlər verilə bilər. Yeni fərmanla isə 5001 rəqəmi 15001 rəqəmi ilə əvəzlənib. Bununla yanaşı, sahibkarlar üçün güzəştli kreditlərin müddəti üç ilədək müəyyən olunub. Əvvəlki sənəddə bu müddət iki ilədək nəzərdə tutulurdu.

## *Əli Əlirzayev: "Prezidentin son fərmanı aqrar sektorda çalışan sahibkarların istehsal imkanlarını artıracaq"*

Ökə başçısının sahibkarlıq subyektləri ilə bağlı son fərmanı mühüm əhəmiyyət kəsb edir. Çünki bunun sayəsində aqrar sektorda fəaliyyət göstərən sahibkarlara verilən kreditlərin həm məbləği artırılır, həm də müddəti. Nəzərə alsaq ki, aqrar sektorda çalışan sahibkarlar kredit resurslarına daha çox ehtiyac duyur, o zaman son fərmanın əhəmiyyətini ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən iqtisadçı-alim Əli Əlirzayev aqrar sektorla bağlı belə bir qərarın verilməsinə bir neçə aspektdən müsbət prizmadan yanaşdı: "Koronavirus pandemiyası aqrar sektora da təsir göstərir. Bu virusun nə qədər davam edəcəyini heç kəs bilmir. Belə bir şəraitdə biz daxili imkanlarımızı artırmalıyıq. Aqrar məhsullara olan tələbatı yerli istehsal hesabına təmin etməliyik. Bazarda olan tələbatı ödəmək üçün istehsal həcmini artırmalıyıq. Kartofdan tutmuş, meyvə-tərəvəzə qədər bütün bu məhsullara olan tələbat yerli istehsal hesabına təmin edilməlidir. Heyvandarlıq sahəsində məhsuldarlıq artmalı və emal sektoru inkişaf etdirilməlidir. Bunun üçün də sahibkarlara sərfəli şərtlərlə aqrar kreditlər verilməlidir. Sahibkarlıq subyektlərinə mikrokreditlərin 5 min manatdan 15 min manatadək artırılması o deməkdir ki, istehsal 3 dəfə artmalıdır. Xaricdən heç nə gəlməyəndə biz bazarda tələbatı daxili imkanlar hesabına təmin etməliyik. Bu gün aqrar sektorda çalışan sahibkarların istehsalı artırmaq üçün xüsusi kapitalı yoxdur. Xüsusən də xırda təsərrüfatların. Ona görə də Prezidentin son fərmanı aqrar sektorda çalışan sahibkarların istehsal imkanlarını artıracaq.

*"...bu kredit təyinatı üzrə xərclənir, yoxsa digər sahələrə yönəldilir..."*

Başqa bir tərəfdən, Azərbaycanın sahibkarları kredit resursları ilə təmin etmək imkanları var. Ona görə də bu ehtiyatlardan səmərəli istifadə edilməlidir. O üzdən, belə bir qərarın verilməsi doğru addımdır. Ancaq əvvəldən planlaşdırılmalıdır ki, bu kredit təyinatı üzrə xərclənir, yoxsa digər sahələrə yönəldilir. Məsələn, sahibkar bu krediti alandan sonra traktor əvəzinə, vəsaiti başqa istiqamətə yönəldə bilər. Ona görə də kreditlər ünvanlı olmalı və bu sahəyə ciddi nəzarət edilməlidir".

***Vidadi ORDAHALLI***

# Rusiya pomidor idxalını azaltmağa hazırlaşır - Azərbaycan pomidoru üçün bazar itirmək təhlükəsi...

**Azərbaycan pomidorunun ixracı üçün əsas bazar Rusiyadır. Ancaq Rusiya Kənd Təsərrüfatı Nazirliyi öz istehsalçılarının müdafiəsi məqsədilə bu məhsulların idxalını tezliklə məhdudlaşdıra bilər.**



Məlumata görə, Rusiya Federasiyasının Kənd Təsərrüfatı Nazirliyi Meyvə və Tərəvəz İstehsalçıları Milli Birliyinin (Meyvə-Tərəvəz Birliyi) ölkəyə pomidor idxalının məhdudlaşdırılması təklifini nəzərdən keçirir.

Qeyd edək ki, Rusiyanın Meyvə-Tərəvəz Birliyi Rusiyaya pomidor idxalına müvəqqəti qadağa qoymaq üçün Kənd Təsərrüfatı Nazirliyinə müraciət edib. Çünki koronavirusa görə özünütəcrid fonunda və rublun devalvasiyası səbəbindən ölkədə meyvə-tərəvəz məhsullarına tələbat kəskin şəkildə azalıb. Xiyar və pomidorun qiymətləri də 50 faiz aşağı düşüb. İstixana təsərrüfatlarının sahiblərini qorumaq, onların ziyanla işləməsinə imkan verməmək üçün Meyvə-Tərəvəz Birliyi ölkəyə pomidor idxalını qadağan etməyi təklif edib.

Əsas pomidor təchizatçıları arasında Azərbaycan göstərilib. 2020-ci ilin yanvar-fevral aylarında Azərbaycandan bu məhsulun ixracı 19,112 min ton təşkil edib ki, bu da ötənilki göstəricidən 3,844 min ton (25,2%) çoxdur. İki ay ərzində Azərbaycan pomidor tədarükçülərinin xarici ölkələrdən əldə etdiyi mənfəət 24,715 milyon dollar təşkil edib ki, bu da 2019-cu ilin analoji göstəricisindən 38,8% çoxdur. Yeri gəlmişkən, bu ilin yanvar-fevral aylarında Azərbaycanın tərəvəz ixracından əldə etdiyi bütün gəlirlərin 85% -i pomidorun payına düşüb.

## *Nicat Nəsirli: "Şübhəsiz ki, Rusiya pomidor idxalını məhdudlaşdırsa, bunun bizə təsiri olacaq"*

Görünən odur ki, Rusiya pomidor idxalını azaltsa, bu, Azərbaycan fermerlərinin və ixracatçılarının gəlirlərinin azalması deməkdir. Maraqlıdır, bəs ekspertlər buna necə yanaşırlar?

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən kənd təsərrüfatı sahəsi üzrə ekspert Nicat Nəsirli buna bir neçə aspektdən yanaşdı. Onun fikrincə, Azərbaycanın qeyri-neft məhsulları ixracı strukturunda pomidor öncül yerə sahibdir: "Şübhəsiz ki, Rusiya pomidor idxalını məhdudlaşdırsa, bunun bizə təsiri olacaq. Ancaq bunun kompensasiya edilməsinin yolları var. O da ondan ibarətdir ki, ilk növbədə, ölkədə pomidorun emal potensialı formalaşdırılmalıdır. Çünki pomidor tərəvəz məhsuludur və uzun müddət daşınmaya, saxlanmaya davamlı deyil. Ona görə də pomidorun emalını təşkil etməklə burada bir sıra əlavə dəyər yaradan məhsullar əldə etmək mümkündür. Yəni məhsulu qablaşdıraraq qeyri-mövsümlərdə onu realizə etmək mümkündür. Ümumiyyətlə, ölkədə il ərzində 480 mindən çox pomidor istehsal olunur. Pandemiya səbəbindən bəzi qabaqlayıcı tədbirlər görmək mümkündür. Bütün bunlarla yanaşı, düşünmürəm ki, Rusiya tamamilə Azərbaycan pomidorundan imtina etsin. Çünki eyni vəziyyət təkcə Rusiyada deyil, bütün ölkələrdə mövcuddur. Nəzərə almaq lazımdır ki, Rusiyada pomidor tərəvəz istehlakında çox mühüm yer tutur. İstənilən halda, bu məhsulun realizə olunmasının 2 yolu var. Ya birbaşa ixrac olunmalıdır, ya da ölkə daxilində emala yönəldilməlidir. Fikrimcə, ən optimal çıxış yolu pomidoru emala yönəldib bir sıra məhsullar əldə etməkdir. Bu həm pomidorun uzunmüddətli istehlakını təmin edər, həm də qeyri-mövsümlərdə sözügedən məhsulların bahalaşmamasına şərait yaradacaq".

*"Ən optimal çıxış yolu pomidoru emala yönəldib bir sıra məhsullar əldə etməkdir"*

***Vidadi ORDAHALLI***

# "AtaBank" heç olmasa ağır koronavirus günlərində müştərilərinə canıyananlıq edəydi - əmanətçilərə niyə pul verilmir...

**Ötən ilin sonlarında "AtaBank"ın fəaliyyətinin dayandırılması haqqında xəbərlər yayıldı. Bankın bağlanması xəbəri orada əmanətləri olan vətəndaşları narahat qoyub. Bankda əmanəti olan şəxslər adıçəkilən bankdan pullarını geri çəkmək istəyirlər.**

*"...heç fəaliyyət də göstərmir, amma yardım edir"*

*Əkrəm Həsənov: "Bank müştərilərinə ödəniş etmir, Mərkəzi Bank isə tədbir görmür"*




Lakin əmanətçilər neçə aydır bankdan öz vəsaitlərini geri ala bilmirlər.

Qeyd edək ki, Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov da yanvar ayında mediaya açıqlamasında "AtaBank"da ciddi problemlərin olduğunu bildirmişdi. Baş bankir bunun səbəbinin bankın rəhbərliyi tərəfindən çox risqli bir neçə iri layihəyə kredit ayrılması olduğunu qeyd edib: "Azərbaycan Mərkəzi Bankı (AMB) "Atabank" ASC-də yaranmış vəziyyətə dair təkliflər hazırlayıb və Maliyyə Sabitliyi Şurasına təqdim edəcək. Bankla bağlı atılacaq addımlar ciddi olduğu üçün Şurada müzakirə ediləcək. Görüləcək tədbirlərin "AtaBank"ın əmanətçiləri üçün hər hansı qorxusu yoxdur. Bu bankda qorunmayan əmanətlər də var. Biz bank rəhbərliyinə dedik ki, hər bir müştəriyə bildiriş göndərilsin və onlar gəlib əmanətlərini sığortalasınlar".

Məsələ ilə bağlı fikir bildirən bank sahəsi üzrə ekspert Əkrəm Həsənov qeyd etdi ki, əmanətçilər "AtaBank"dan əmanətini geri ala bilmirlər: "AtaBank" da Koronavirusla Mübarizəyə Dəstək Fonduna 100 min manat ianə edib. Aylardır əmanətçilərin əmanətini, digər müştərilərinin pulunu qaytarmır, demək olar ki, heç fəaliyyət də göstərmir, amma yardım edir. Yardım etmək yaxşı işdir, amma öz hesabına.

**Sən başqalarından milyonlarla pul topla, qaytarmaqdan imtina et, həmin vəsaitin bir hissəsini də xeyriyyəçiliyə sərf et! Nədir bunun adı? Ad tapa bilmirəm. Necə ki, Mərkəzi Bankın da bu bank barəsində tədbir görməməsinə. Dünya tarixində misli görünməyən hadisədir: bank müştərilərinə ödəniş etmir, Mərkəzi Bank isə tədbir görmür. Belə bank sisteminə axı necə etibar etmək olar?".**

***Günel CƏLİLOVA***

# Uşaqların koronavirusa yoluxduğu barədə iki ziddiyyətli xəbərə həkimlər necə baxır...

**Dünyanın bir sıra ölkələri kimi, Azərbaycanda da karantin və sosial təcrid rejimi tətbiq olunub. "Evdə qal!" çağırışı günün şüarıdır indi. Xəstəliyin yayıldığı ilk ərəfələrdə bu virusun uşaqlara deyil, yalnız böyüklərə təsir etdiyi bildirilirdi. Dünya alimləri iddia edirdilər ki, yeni koronavirus nadir hallarda uşaqlara və yeniyetmələrə yoluxur.**

*"Uşaqlar bu xəstəliyi yüngül və fəsadsız keçirirlər, buna görə də koronavirus nəticəsində həyatını itirənlər arasında... "*

*Lalə Əliyeva: "Uşaqların bu xəstəliyə yoluxmaması ilə bağlı deyilənlər həqiqəti əks etdirmir"*



"İzvestiya" nəşri yazır ki, bunu Çinin xəstəliklərin nəzarəti və profilaktikası mərkəzinin təhlili əsasında hazırlanan statistika sübut edir. Mütəxəssislər COVID-19 ilə bağlı 70 mindən çox yoluxma faktını araşdırıblar. Bu məlumatlara görə, on yaşa qədər uşaqların və on yaşdan 19 yaşa qədər yeniyetmələrin yalnız 1 faizi koronavirusa yoluxub.

Nijni Novqorod Dövlət Universitetinin Biologiya və Biotibbi İnstitutunun direktoru Mariya Vedunovanın sözlərinə görə, uşaqlar və yeniyetmələr həqiqətən yeni koronavirusdan daha yaxşı qorunurlar. O, yaşlı insanların risq altında olduğunu vurğulayıb. "İnsanın immun sistemi yaş ötdükcə zəifləyir və infeksiyalara daha həssas olur. Xroniki xəstəliklərin olması çox vaxt fəsadlar yaradır" - deyə, Vedunova bildirib.

Ancaq son bir ayda koronavirusun qurbanları arasında uşaqların da olduğu məlum olub. Təəssüf hissi ilə bildirək ki, ölkəmizdə koronavirusa yoluxanlar arasında uşaqlar var. Açıqlanan rəsmi məlumatlara əsasən, koronavirusa yoluxanlar arasında iki yaşında olan uşaq qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahın keçirdiyi mətbuat konfransında Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı media nümayəndələrinə açıqlamasında qeyd edib ki, bu gün Azərbaycanda koronavirusa yoluxanlar arasında 2 yaşlı uşaq var.

Həkim-pediatr Lalə Əliyeva bildirdi ki, uşaqların bu xəstəliyə yoluxmaması ilə bağlı deyilənlər həqiqəti əks etdirmir: "6 aya qədər uşaqların immun sistemi olmadığı üçün onlarda yoluxma risqi aşağıdır. Ancaq bu, təsdiqlənmiş, qəti qənaət deyil. Böyüklərdə tətbiq etdiyimiz gigiyenik normaları uşaqlar üçün də etməliyik. Valideynlərə tövsiyə edirəm ki, uşaqların doğru qidalanmasına diqqət etsinlər, çünki qidalanma immunitetə təsir edən ən vacib göstəricilərdəndir. Təbii qidalara və bol mayeyə üstünlük verilməlidir".

Həmsöhbətimiz onu da əlavə etdi ki, koronavirus heyvanlardan insanlara keçə bilən viruslardandır. Bu virus insanlara keçdiyi zaman mutasiyaya uğraya və insanlar arasında sürətlə yayıla bilir. Bu infeksiya yaşlılara, sağlamlıq problemi olan, immun sistemi zəif olan insanlara daha tez təsir göstərir: "Adətən, uşaqlar bu xəstəliyi yüngül və fəsadsız keçirirlər. Buna görə də koronavirus nəticəsində həyatını itirənlər arasında uşaqlara, demək olar ki, rast gəlinmir.

**Koronavirus bir insandan qrip virusuna bənzər şəkildə asqırma və öskürmə nəticəsində hava-damcı yoluyla digər insanın yuxarı tənəffüs yollarına ötürülür. İnfeksiyalaşmış əşyalardan da infeksiya ötürülə bilər. Virusun inkubasiya dövrü orta hesabla 5-11 gün olmaqla 2 həftəyə qədər hesab edilir. Quru öskürək, qızdırma, halsızlıq, boğaz ağrısı, burun axması, əzələ ağrıları, təngənəfəslik, boğulma, ishal, ürəkbulanma, qusma, iştahsızlıq xəstəliyin əsas klinik əlamətləridir".**

***Günel CƏLİLOVA***

№ 54 (4185) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

10 APREL 2020-ci il

www.baki-xeber.com



# Uç min il yaşı olan Misir mumiyasının tabutunda nadir rəsmlər aşkarlanıb

**Şotlandiyalı alimlər 3 min il yaşı olan Qədim Misir mumiyasının tabutunda nadir rəsmlər aşkar ediblər.**

AZƏRTAC xəbər verir ki, "Takerheb" adlanan mumiyanın tanrı Amonun şəhəri olan Thebes nekropolundan 100 il əvvəl İngiltərəyə gətirildiyi bildirilir. Onun Thebe şahzadələrindən birinə aid olduğu ehtimal olunur. Arxeoloqlar tabutun içərisində Qədim Misir tanrılarının rəsmlərini tapıblar. Bu rəsmlər arasında ən nadir olanı isə "Amentet" ("Şərq qadını") adlanan tanrıçanın təsviridir. Şotland alim Mark Hall bildirib ki, indiyədək tabutda - mumiyanın altında bu cür maraqlı rəsmlərin olduğu heç kimin ağlına gəlməyib. Onun sözlərinə görə, bu tapıntı Qədim Misirin e.ə. VIII-VII əsrdə tarixinin tədqiqinə də töhfə olacaq. Tabutun içində "Amentet"in qırmızı libasda təsviri göstərir ki, qədim misirlilər ona səcdə edirmişlər. Misirdən Britaniyaya aparılan mumiya 1936-cı ildə Alloa Təbiətşünaslıq və Arxeologiya Cəmiyyəti tərəfindən Şotlandiyadakı Perts Muzeyinə hədiyyə edilib. 2013-cü ildə onu Mançester Kral Xəstəxanasına aparıblar və orada "X-Ray" vasitəsilə tədqiq ediblər. Radioqrafiya nəticəsində məlum olub ki, mumiyanın bir çox hissəsi ciddi deformasiyaya uğrayıb.

## Astronavt olmaq üçün 12 mindən çox şəxs müraciət etdi

**NASA "Artemis" layihəsi üçün verdiyi elana astronavt olmaq istəyən 12 mindən çox şəxsin müraciət etdiyini bildirib.**

"Ted.az" bildirir ki, NASA bu layihəni 2024-cü ilə qədər həyata keçirməyi planlaşdırır. Şirkət rəsmilərinin sözlərinə görə, müraciət edənlərin əksəriyyəti Amerika vətəndaşlarıdır. Layihə üçün martın 2-də başlanan müraciət vaxtı 31 martda başa çatıb. Yeni astronavtların adlarının 2021-ci ilin əvvəlində açıqlanacağı gözlənir. Xatırladaq ki, NASA 1960-cı ildən bu günədək astronavt təhsili üçün 350 tələbə qəbul edib. Təhsil müddətini uğurla başa vuranlar şirkətdə işlə təmin olunurlar.

## Koronavirus uşaqlar üçün nə dərəcədə təhlükəlidir?

**ABŞ Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzi yeni doğulmuş uşaqların və kişilərin SARS-CoV-2-yə yoluxma və ağır simptomların inkişaf risqinin yüksək olduğu araşdırma təqdim edib.**

"Milli.Az" xəbər verir ki, elmi işlərin nəticələri kafedranın saytında dərc olunub. Mütəxəssislər ABŞ-da fevralın 12-dən aprelin 2-dək 18 yaşınadək uşaqlarda 2500 COVID-19 halını araşdırıb. Əldə edilən məlumatlar uşaqların böyüklərə nisbətən xəstəliyə olduqca az həssas olduğunu təsdiqləyir. Virusa yoluxanların yalnız 1.7 faizi uşaqlar olub, baxmayaraq ki, əhalinin 22 faizini təşkil edirlər.

Onların yalnız 73 faizində öskürək, hərarət və ya təngənəfəslik özünü göstərib. 18 yaşdan 64 yaşa qədər olanlarda bu göstərici 93 faizdir.

Lakin bəzi uşaqlarda ağır simptomlar müşahidə olunub, 147-si xəstəxanaya yerləşdirilib, beşi reanimasiyaya göndərilib, üçü isə ölüb. Bununla yanaşı, 95 körpənin 62 faizi xəstəxanaya yerləşdirilib.

Alimlərin fikrincə, həyatın ilk ilində körpələr uşaqlar və böyüklər kimi sabit immunitet reaksiyasına sahib deyil. Bundan əlavə, araşdırmalar göstərir ki, kişilər qadınlardan daha çox COVID-19-a yoluxur və vəfat edirlər. Martın 20-nə olan məlumata görə, Qərbi Avropada koronavirusdan ölənlərin təxminən 70 faizini kişilər təşkil edir.

## Avstraliyada "balıq yağışı" yağıb

**Avstraliyanın Yova şəhərinin sakinləri leysan yağışdan sonra əmələ gəlmiş gölməçələrdə balıqların üzdüyünü aşkar ediblər.**

AZƏRTAC yerli KİV-ə istinadla xəbər verir ki, sakinlərin bildirdiyinə görə, həmin balıqların uzunluğu 7 santimetrə çatır. Bu balıqlardan çoxunun sağ olduğu da bildirilir. Qeyri-adi yağışın "Ester" tropik siklonu ilə əlaqədar olduğu qeyd edilir. Həmin siklonun fevralın sonlarında Sakit okeanın cənubunda əmələ gəldiyi və Avstraliyanın şimal hissəsindən keçərək onun qərbinə çatdığı bildirilir. Hazırda geri qayıdan siklon bəzi yerlərdə daşqınlara da səbəb olub. Mütəxəssislərin bildirdiyinə görə, balıq yağışı Avstraliya üçün heç də qeyri-adi hal deyil. Belə yağışlar azı ildə bir dəfə güclü qasırğa zamanı müşahidə edilir.

## "Uçan zibilqabı" - Karantin vaxtı küçədə çəkilən foto çaşqınlıq yaradıb

**Sosial şəbəkələrdə yayılan foto maraq doğurub. "Milli.Az" xarici mətbuata istinadla bildirir ki, "Reddit"də paylaşılan foto karantin dövründə, Birləşmiş Krallıqda çəkilib.**

Küçədə qoyulmuş zibil qabı elə istiqamətdən çəkilib ki, ilk baxışda tamamilə fərqli görünür. Optik illüziya yaradan fotoda, sanki, zibilqabı havadaymış kimi təəssürat formalaşır. Foto sosial şəbəkələrdə yüzlərlə dəfə paylaşılıb. Bəziləri fotoya şərh olaraq "deyəsən, karantində dəli olmuşam, uçan zibilqabı görürəm", "biz karantindəyik, amma zibil qabları uçur" tipli sözlər yazıblar.







**Qoç** - Sizə unudulmaz təəssüratlar, ilham və güc verəcək romantik görüş ehtimalı var. Çox şeyin öhdəsindən gələ bildiyinizi gördükcə yeni sevinclərə doğru yeriyəcəksiniz.



**Buğa** - Sənədlərlə işləmək, hesabatların və smetaların hazırlanması, büdcə planlaşdırılması üçün münasib gündür. Düzdür, diqqətinizi cəmləşdirməyiniz kifayət qədər çətin olacaq, amma özünüzü işə girişməyə vadar etsəniz, nəticələri çox gözləməli olmayacaqsınız.



**Əkizlər** - Yaxınlarınızla yola getmək asan olmayacaq: sizin davranışınız onları qane etmir və bunu gizlətmirlər. Münaqişələrdən qaçmağa çalışın. Əgər inciklik yaransa, barışmaq çox çətin olacaq.



**Xərçəng** - Gözlənilməz xəbər əvvəlcə sizi təəccübləndirəcək, hətta qorxudacaq, bir qədər sonra isə maraqlı fikirlərə yol açacaq. Bugünkü hadisələr bir çox Xərçənglər üçün dönüş nöqtəsi olacaq, ciddi dəyişikliklərin əsasını qoyacaq, planlara yenidən baxmağa vadar edəcək.



**Şir** - Yaradıcılıq potensialı aşağıdır. Ona görə də ideyalar həmişəkindən daha az-az yaranacaq, yaranan ideyalar isə o qədər də yaxşı olmayacaq. Eksperimentlər etmək, yalnız təxmini təsəvvürünüz olan işlərə girişmək məsləhət deyil.



**Qız** - Əməkdaşlığa başlamaq üçün əlverişli gündür. Prioritetləri düzgün seçə, hamı üçün sərfəli olan planlar qura biləcəksiniz. Bu gün köhnə işgüzar əlaqələri də bərpa etmək olar.



**Tərəzi** - Emiosional baxımdan olduqca çətin gündür. Çünki sizin hələ hazır olmadığınız hadisələr baş verəcək. Sarsıntı çox ciddi ola bilər. Özünüzü tamamilə köməksiz və çaşqın hiss edəcəksiniz.



**Əqrəb** - Emosiyalarınızı nəzarət altında saxlayın. Hamıya təkcə qeyri-adi enerjiyə yox, həm də intellekt və soyuqqanlılığa malik olduğunuzu göstərməyin vaxtı çatıb. Bu keyfiyyətlər olmadan uğura ümid etməyə dəyməz.



**Oxatan** - Gün romantik baxımdan pis olmayacaq. Siz sevdiyiniz adamla ələ vaxt keçirəcəksiniz. Hər ikinizə unudulmaz təəssüratlar bəxş edəcək tədbirlər planlaşdırmaq olar.



**Oğlaq** - Çətin olmayan ev işləri üçün münasib gündür. Çətin ki, köməkçi tapa biləsiniz. Ona görə də böyük səylər tələb edən işlərə girişməməyiniz tövsiyyə olunur. Zövqverən adamlarla gəzinti faydalıdır.



**Dolça** - İşləriniz yavaş-yavaş qaydasına düşür. Dəyərli informasiyanın alınması, son vaxtlar sizi maraqlandıran sualların cavablandırılması mümkündür. Mübahisəli qərarlardan, düşünülməmiş addımlardan qaçmağa çalışın.



**Balıqlar** - Diqqəti artıq mövcud olan problmlərdə cəmləşdirə bilən və uzaq gələcəkdə baş verəcəkləri düşünməyən Balıqlar üçün əlverişli və uğurlu gündür. İndi cari işlər diqqət tələb edir, plan qurmağın vaxtı bir qədər sonra gələcək.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Bir foto dilənçi qızı milyonçuya çevirdi



**Filippin sakini Rita Qaviola öz misalında yoxsul insanın qısa zamanda zəngin ola bildiyini sübut edib.**

"Oxu.az" xəbər verir ki, 2016-cı ildə 13 yaşı olarkən filippinli fotoqraf Topher Kuinto Burqos təsadüfən onun dilənən zaman şəklini çəkib. O zaman qızın atası zibil yığmaqla məşğul olurmuş, anası isə evdə Ritanın balaca bacı və qardaşlarına baxırmış. Onlardan heç biri məktəbə getmirdi, ailə günlərlə ac qalırdı. Qızın təbii gözəlliyinə vurulan fotoqraf onun şəklini sosial şəbəkələrdə paylaşır. Bundan sonra qızın həyatı 180 dərəcə dəyişir. Ritaya "baco qız" ləqəbi qoyurlar. Qeyd etmək lazımdır ki, bacolar Filippində köçəri həyat yaşayan etnik azlıqdır. Onları, həmçinin, "dəniz qaraçıları" adlandırırlar. Qeyd etmək lazımdır ki, hazırda Rita Qaviola Filippinin ən varlı modellərindən biri sayılır.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.